

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qarabağ və Şərqi Zəngəzurda dini abidələrə verilən yeni həyat



13

SƏS
№ 239 (6922)
28 dekabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Dünyada nüfuzlu siyasətçi, müdrik diplomat və Müzəffər Ali Baş Komandan!



2

**Prezident İlham Əliyevə ünvanlanan təbrik məktubları ölkəmizin və ölkə Liderinin beynəlxalq miqyasda nüfuzunun artmasının əyani şəkildə təsdiqidir**

# Qərbin ənənəvi ÇEVRİLİŞ PLANI




8

## "Dövlətimizin zəfərə imza atması medianın fəaliyyətində dönüş yaratdı"



4

## Övladlığa götürə bilmirsənsə, himayə et



15

## 2023-cü il media üçün necə yadda qaldı?



7

## Rusiyalı ekspert: "Postsovet məkanında ən müstəqil ölkə Azərbaycandır"



11

## Yaşayış yeri üzrə qeydiyyatı olmayanlara ŞAD XƏBƏR




16

Danılmaz faktordur ki, dövlət o zaman güclü və qüdrətli, ən əsası, sözün əsl mənasında, müstəqil olur ki, onun gələcəyini düşünən, atdığı hər addımda dövlət maraqlarını öndə saxlayan Lideri vardır. Məhz bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, dünya birliyində layiqli yer tutması, sözünün imzası qədər əhəmiyyəti, sabitlik diyarı kimi nüfuz qazanaraq bütün sahələrdə inkişafı, bir sözlə, yeniliyə əsaslanan inkişaf modeli liderlik amili ilə birbaşa bağlıdır. Məhz bu gün Qalib ölkənin, qalib vətəndaşları olaraq başımız dikdir və qürur duyuruq ki, Qalib Sərkərdə Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasətinin gücü ilə Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin birliyi və qəhrəmanlığı ilə xalqımızın müstəqillik arzularını gerçəkləşdirdi. Və bu gün Azərbaycanın qalib Lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edərək tarixi nailiyyətlər qazanır dünyada getdikcə nüfuzu artan Azərbaycan beynəlxalq münasibətlərdə önəmli rol oynayır, qlobal iqtisadi və humanitar layihələrdə liderlik keyfiyyətləri nümayiş etdirir. Xarici ölkələrin və beynəlxalq təşkilatların rəhbərlərinin Prezident İlham Əliyev cənablarına ad günü münasibətilə ünvanlanan təbrik məktubları respublikamızın və onun Liderinin beynəlxalq miqyasda nüfuzunun artmasını əyani şəkildə təsdiqləyir.



# Dünyada nüfuzlu siyasətçi, müdrik diplomat və Müzəffər Ali Baş Komandan!

**Prezident İlham Əliyevə ünvanlanan təbrik məktubları ölkəmizin və ölkə Liderinin beynəlxalq miqyasda nüfuzunun artmasının əyani şəkildə təsdiqidir**

### GÖNDƏRİLƏN TƏBRİK MƏKTUBLARININ HƏR BİRİNDƏ ÖLKƏ BAŞÇISININ



### DÜNYADAKI NÜFUZUNA DİQQƏT ÇƏKİLİR, AZƏRBAYCAN ETİBARLI TƏRƏFDAŞ KİMİ QİYMƏTLƏNDİRİLİR

Dünyanın aparıcı ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin Prezident İlham Əliyev cənablarına ad günü münasibətilə ünvanlanan təbrik məktublarında ifadə edilən fikirlərdə Azərbaycanın yüksək beynəlxalq nüfuza malik olması, regionun lider dövləti olaraq bir sıra mühüm beynəlxalq təşəbbüslərin müəllifi kimi tanınması, səmərəli tərəfdaşlıq münasibətləri ilə beynəlxalq güclər sistemində özünə layiqli yer tutması diqqətə çatdırılır. Bütün bunlarla yanaşı, respublikamızın beynəlxalq münasibətlərdə oynadığı önəmli rol, qlobal iqtisadi və humanitar layihələrdə liderliyi önə çəkilir, dünya ölkələrinin təhlükəsizlik, enerji və demokratik idarəetmə məsələlərində uğurlu səyləri yüksək qiymətləndirilir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu son 20 il müddətdə bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin təkmil, yenilikçi siyasətinin nəticəsində "Dəmir Yumruq" siyasəti ilə 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir. 300 ilə yaxın idi ki, böyük qələbəyə ehtiyacı olan və on illər idi ki, ermənilərin hər dəfə müxtəlif azğınlıqları ilə qarşılaşan xalqımız və dövlətimiz nəhayət ki, qələbəyə imza ataraq tarixi ədaləti bərpa etməyə müvəffəq oldu. Belə ki, 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Və üç il bundan öncə Azərbaycanın parlaq Zəfərlə başa vurduğu 44 günlük Vətən Müharibəsi, eləcə də 2023-cü ilin sentyabrın 19-20-də isə uğurlu antiterror əməliyyatları ilə Azərbaycan beynəlxalq qanunlarla təsbit olunmuş ərazilərində suverenliyini, ərazi bütövlüyünü tam bərpa etdi. Və beynəlxalq vasitəçilərin uzun illər edə bilmədiklərini və yaxud etmək istəmədiklərini Azərbaycan özü reallığa çevirdi. Bütün bunları nəzərə alaraq tam əminliklə bir daha deyə bilərik ki, 2024-cü il 7 fevral seçkilərinin ən şərəfli və qürurlu anı ondan ibarətdir ki, 30 il əvvəl evlərindən didərgin salınan azərbaycanlıların bir hissəsi daha müvəqqəti məskunlaşdıqları bölgələrdə deyil, böyük quruculuq və abadlıqla bərpa olunan, cənnət məkana çevrilən öz doğma torpaqlarında - Zəngilanda, Laçında, Şuşada, Füzulidə, Cəbrayılda və azad olunmuş digər yerlərdə səs verəcəklər.

### AZƏRBAYCAN ÖZ SUVERENLİYİNİ BƏRPA ETDİ

"Antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir".Prezident İlham Əliyev xalqa müraciətində antiterror tədbirləri nəticəsində hərbçilərimizin böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edərək deyib: "Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır".

Bəli, haqq savaşımız Zəfər Qələbəsi ilə başa çatdı. Azərbaycan xalqı bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur hissləri yaşayır. Bu zəfərlə biz Ermənistanın 20 faiz ərazilərimizin 30 illik işğalına son qoyduq. Torpaqlarımızı azad etməklə həm də bütün dünyada yenidən tanındıq, özü də bu dəfə qalib dövlətin Qalib Sərkərdəsinin qalib xalq birliyi ilə...Və bütün Azərbaycan xalqı Prezidentimizin ətrafında dəmir yumruq kimi birləşərək sözün əsl mənasında böyük və qəhrəman xalq olduğunu bir daha sübut etdi, misilsiz birlik, həmrəylik nümayiş etdirdi və cəmiyyətimizdə mövcud olan Xalq-Lider-Ordu birliyini daha yüksək səviyyəyə qaldırdı. Xalq öz Liderinə ürəkdən inandı və Ali Baş Komandan İlham Əliyev



Azərbaycan xalqının etimadını əməli fəaliyyəti və şanlı zəfəri ilə doğrultdu. Möhtərəm Prezidentimiz öz qətiyyəti, sarsılmaz iradəsi, cəsarəti, Azərbaycana edilən bütün təzyiqlərə məharətlə sinə gərməsi və son dərəcə mürəkkəb, çətin müharibə şəraitində hərbi meydanda, siyasi arenada, informasiya müharibəsində parlaq qələbələr qazanaraq xalqına söz verdiyi kimi sona qədər getdi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi və Vətən torpağı uğrunda şəhid olan bütün oğul-qızlarımızın qisasını aldı.

**Ardı Səh. 3**

# Dünyada nüfuzlu siyasətçi, müdrik diplomat və Müzəffər Ali Baş Komandan!

## Prezident İlham Əliyevə ünvanlanan təbrik məktubları ölkəmizin və ölkə Liderinin beynəlxalq miqyasda nüfuzunun artmasının əyani şəkildə təsdiqidir

Əvvəli Səh. 2

Əminliklə deyə bilərik ki, İlham Əliyev öz adını milli tariximizin son 200 ildə ən şanlı və Müzəffər Sərkərdəsi kimi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə əbədi həkk etdi.

### AZƏRBAYCANIN SƏDRLİYİ DÖVRÜNDƏ QOŞULMAMA HƏRƏKATININ BEYNƏLXALQ ALƏMDƏ NÜFUZU DAHA DA YÜKSƏLİB

Dünyada BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisatı olan Qoşulmama Hərəkatına Azərbaycan 2019-cu ildən etibarən üç il müddətinə QH-yə sədrliyi həyata keçirməyə başladı. Azərbaycanın sədrliyi dövründə gördüyü işlərə, irəli sürdüyü təşəbbüslərə və təsisatın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımlara görə ölkəmizə etimadın göstəricisi kimi Hərəkata sədrliyimiz daha bir il uzadıldı. Azərbaycan Prezidenti İlham Əliyevin sayəsində ölkəmiz bu təsisata uğurla rəhbərlik etməklə onun beynəlxalq aləmdə nüfuzunu və rolunu gücləndirib, böyük uğura imza atıb. Dövlətimizin başçısının Qoşulmama Hərəkatının







sədri kimi beynəlxalq müstəvidə davamlı və ardıcıl şəkildə irəli sürdüyü təşəbbüs və təkliflər daim həm Hərəkat, həm də digər ölkələrin geniş dəstəyini qazanıb. Ölkəmizin Hərəkata sədrliyinin ilk illəri COVID-19 pandemiyası ilə əlaqədar dünyanı sarsıdan qlobal səhiyyə böhranı dövrünə təsadüf etsə də Azərbaycan özünün sədrlik gündəliyini çevik və effektiv şəkildə yeni reallığa uyğunlaşdırdı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatı pandemiya ilə mübarizədə qlobal lider rolunu öz üzərinə götürdü və dünya ictimaiyyətini bu təhdidlə mübarizədə səfərbər etdi. 2020-ci ilin mayında Hərəkatın COVID-19 ilə mübarizəyə həsr edilən liderlər səviyyəsində onlayn sammitinin keçirilməsi bu istiqamətdə atılmış ilk addımlardan biri idi. Sammitdə Prezident İlham Əliyev BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif 150-dən çox ölkə tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya uğurla baş tutdu. Yetmişdən çox dövlət və hökumət başçısının çıxış etdiyi bu xüsusi sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir oldu. Azərbaycanın Hərəkata sədrliyi dövründə həyata keçirdiyi ən önəmli fəaliyyətlərdən biri peyvənd millətçiliyinə qarşı mübarizə aparması oldu. Təsadüfi deyil ki, Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı tərəfindən həm BMT İnsan Hüquqları Şurasında, həm də Baş Assambleyada "COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi"nə dair qətnamələr qəbul edildi. Qlobal səhiyyə böhranı dövründə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmadı. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərdi. Təbii ki, bu ölkəmizin Hərəkatın sədri kimi məsuliyyətinin və bəşəri dəyərlərə verdiyi önəmin göstəricisidir. Həmçinin Azərbaycan sözügedən məqsədlə Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərib və təşkilata 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib. Bu, həm də Azərbaycanın keçdiyi inkişaf yolunun, əldə etdiyi iqtisadi nailiyyətlərin göstəricisidir. Çünki vaxtilə maliyyə yardımı alan Azərbaycan artıq özü fəal donor ölkəyə çevrilib.

Beləliklə, məhz Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq aləmdə nüfuzu daha da yüksəldi, onun beynəlxalq gündəlikdə duran qlobal məsələlərin həllində rolu daha da artdı. Prezident İlham Əliyevin sədrliyi ilə Hərəkat sürətlə dəyişən bugünkü dünyada öz mövqeyi və yeri olan mötəbər beynəlxalq təsisata çevrilib. Bu gün Qoşulmama Hərəkatı multilateralizm nümunəsi kimi qəbul edilir. Əslində, buna nail olmaq heç də asan deyil. Belə ki, Qoşulmama Hərəkatı fərqli etnik, dini, mədəni köklərə, siyasi quruluşlara malik və bəzən hətta bir-biri ilə kəskin münasibətdə olan 120 dövlətdən ibarətdir. Belə fərqli və mürəkkəb coğrafiyada birləşdirici, effektiv və nəticəyönümlü sədrlik etmək məhz Prezident İlham Əliyevin tarixi uğurudur. Və növbəti böyük tədbirin .

### COP 29-UN AZƏRBAYCANDA KEÇİRİLMƏSİ ÖLKƏMİZİN BEYNƏLXALQ NÜFUZUNUN GÖSTƏRİCİSİDİR

Bu gün Azərbaycan müxtəlif istiqamətlər üzrə bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib. Bu tədbirlər ölkəmizin tanınması, onun mədəniyyəti, tarixi haqqında məlumatların əldə olunması, iqtisadi imkanlar, gələcək layihələrin və əməkdaşlıq perspektivlərin dəyərləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq aləmin hər bir üzvünün razılığı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsi ölkəmizin alternativ enerjiyə keçiddə öz imkanlarını nümayiş etdirmək üçün mühüm platformadır. Əlbəttə ki, bu səbəbsiz deyil. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, onun prinsipial mövqeyi sayəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artır. Ölkə başçısının apardığı müstəqil siyasət, bütün qərar və addımların beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsi, əməkdaşlıq münasibətlərində dürüstlük, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası və digər amillər bütövlükdə Azərbaycana olan münasibəti müsbət mənada dəyişib.

Doğrudur, erməni diasporu və bəzi siyasi qüvvələr revanşist hərəkətlərini davam etməkdədir. Prezident İlham Əliyevin dediyi kimi, "Fransada və bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar" Belə ki, 2024-cü ildə dünyanın ən böyük və ən mühüm dövlətlərarası tədbirlərindən birinin Azərbaycanda keçirilməsi Fransadakı erməni havadarlarını ciddi təşvişə salıb. Onlar COP29-un Azərbaycanda keçirilməsinin əleyhinə mətn imzalayıblar. Maraqlıdır ki, Ermənistanın özü Azərbaycanın xeyrinə COP29 sessiyasına ev sahibliyi etmək üçün öz namizədliyini geri götürüb. Yəni, Ermənistan rəhbərliyi Azərbaycanla birbaşa danışıqlar aparmağın adekvatlığını və məlumatlılığını nümayiş etdirdiyi halda, Fransa erməniləri açıq şəkildə bu prosesi pozmağa çalışırlar. Bu və ya digər şəkildə Azərbaycanın düşmənləri növbəti uğursuzluqları ilə barışmalı olacaqlar. Çünki Azərbaycanın irimiqyaslı beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə böyük təcrübəsi var. COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədəki çıxışında bu məsələyə toxunan Prezident İlham Əliyev bildirdi ki, "Hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilib. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq".

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarıb. Dövlətimizin başçısı Azərbaycanın iqtisadi və hərbi qüdrətinin, beynəlxalq nüfuzunun gücləndirilməsi yolunda böyük inam və qətiyyətlə çalışıb. Vətən müharibəsi günlərində döyüşən orduya tapşırıqlarını birbaşa özü verib. Müzəffər Ali Baş Komandan üçrəngli bayrağımızın 30 ildən sonra Qarabağda, Şərqi Zəngəzurda yenidən dalğalanmasına nail olub. Bu Qələbə regionda yeni reallıqların yaranmasına səbəb olub. Beləliklə bu gün cənab Prezident İlham Əliyevin hərtərəfli siyasəti sayəsində Azərbaycan təkcə regional iştirakçı deyil, həm də qlobal problemlərin həllinə təsir edə bilən bir ölkədir. Azərbaycan Liderinin artmaqda olan nüfuzu ölkənin siyasi gücünü artırmaqla yanaşı ölkəmizi bir çox sahələrdə Avropa qitəsi üçün vacib, əvəzolunmaz və etibarlı tərəfdaşa çevririb.

Beləliklə də, bu gün Prezident İlham Əliyev cənablarına ünvalanan təbrik məktubları dövlət başçımızın son 20 ildə uğurla, qətiyyətlə Azərbaycanın haqq, ədalət tərəfdarı olduğunun göstəricisi olmaqla, həmçinin məktublarda ölkəmizin dünya arenasında yüksək nüfuz qazanması, beynəlxalq gündəlikdəki çoxsaylı mühüm məsələlərin həllində fəal rol oynaması, regional sülh və sabitliyin möhkəmləndirilməsi istiqamətində birgə əməkdaşlıq münasibətlərinin qurulması ilə bağlı nəzərəçarpan uğurlar əldə etməsi öz ifadəsini tapıb. Bütün bu dəyərləndirilmələr isə təbii ki, Prezident İlham Əliyevin beynəlxalq uğurlu siyasətinə, səmərəli fəaliyyətinə verilən yüksək qiymətin ifadəsidir.

***RƏFİQƏ KAMALQIZI***

# Xocalı sakinlərini gözləyir



Xocalı şəhəri bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı yaşadı. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Əlbəttə ki, erməni-rus hərbi birləşmələri Xocalıda terror planını əvvəldən hazırlanmışdılar. 1992-ci il yanvarın 16-da keçirilən "Xüsusi müşavirə" sözügedən planın tərtib edilməsinə xidmət etmişdir. "Xüsusi müşavirə"də "Hoydad" və "ASALA" erməni terror təşkilatlarının nümayəndələri ilə yanaşı, Xankəndidə yerləşdirilmiş ruslara məxsus 366-cı motoatıcı alayın komandiri polkovnik Zarviqorov da iştirak etmişdi. 1992-ci ilin yanvar ayında Paris yaxınlığında qeyri-leqal məxfi təlim düşərgəsi yaratmış "ASALA" erməni terrorçu təşkilatının bir qrup üzvü 26 nəfərlik dəstə, mayor Aqşin Mimonyanın başçılığı ilə Xankəndinə gəlmişdi. Müşavirədən sonra 366-cı alayın tərkibində edilən dəyişikliklər xüsusi maraq doğurur. Belə ki, həmin il yanvarın 23-də 366-cı alayında 93\5 nömrəli sərəncam imzalanmışdı. Alayın daxili möhürü ilə təsdiq olunmuş sərəncama əsasən, alayda xidmət edən gürcülər, tatarlar, belaruslar, türkmənlər, qazaxlar və ləzgilər ordudan təxris olunmuşdur. Beləliklə, alaydan tərxis olunmuşların yerini xüsusi təlim keçmiş "Haydad"çılar tutmuşlar.

Xocalının işğalı 1991-ci ilin oktyabrından, erməni quldur birləşmələrinin şəhəri mühasirəyə almasından başlayır. Həmin vaxtdan etibarən bütün avtomobil yolları bağlanmış, cığır və keçidlər ermənilərin nəzarəti altına keçmişdi. Əraziyə yalnız havadan daxil olmaq mümkün idi ki, bu da böyük risk tələb edirdi. İşğal ərəfəsində Şuşa səmasında sərnişin vertolyotunun vurulması 40 nəfər azərbaycanlının həyatına və Xocalı sakinlərinin ümidlərinə son qoydu.

## İNSANLIĞA QARŞI ƏN AĞIR CİNAYƏTLƏRDƏN BİRİ

Faciənin baş verməsindən xeyli əvvəl artıq şəhərdə vəziyyət də gərginləşmişdi. Xocalı sakinləri şəhəri əldən vermək fikrində deyildilər və əli silah tutan hər bir Xocalı sakini atababa yurdunun müdafiəsinə qalxmışdı. 1992-ci il fevralın 25-də gecə saat 23-də ermənilər keçmiş SSRİ-nin 366-cı motoatıcı alayı ən müasir döyüş silahlarının və canlı qüvvələrinin köməyi ilə qəflətən şəhərə güclü hücuma keçmişdi. 1992-ci il fevralın 26-da baş verən faciə xalqımızın taleyində ən ağır və acılı anlarından biri kimi yaşandı. Yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyitləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar və bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur.





Xocalıya hücum əməliyyatına 366-cı alayın ikinci taqımının komandiri Seyran Ohanyan, üçüncü taqımının komandiri Yevgeni Nabokix, birinci taqımının qərargah rəisi Valeri Çitçyan rəhbərlik etmişlər. Əməliyyata alayın 90-dan çox tankı, piyada döyüş maşını və digər hərbi texnikası cəlb edilmişdir. Az bir vaxt ərzində şəhərdə böyük miqyaslı yanğınlar baş verdi və şəhər tamamilə alova bürünür. Şəhərin azsaylı müdafiəçiləri və yerli əhalidən sağ qalanlar buranı tərk etməyə məcbur oldular. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən işğal edildi. Xocalı bir gecənin içərisində yerlə yeksan olundu. Beləliklə, soyuq və qarlı fevral gecəsində minlərlə dinc sakin girov götürüldü. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Qabaqcadan planlaşdırılmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilmişdir. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diridiri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar.

## SÜLH VƏ BƏŞƏRİYYƏT ƏLEYHİNƏ YÖNƏLƏN ƏMƏL VƏ ƏN AĞIR BEYNƏLXALQ CİNAYƏT

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Belə ki, bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayətdir. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. Bu, BMT Baş Məclisinin 1948-ci il tarixli qətnaməsi ilə qəbul edilib və 1961-ci ildə qüvvəyə minən soyqırımı cinayətinin qarşısının alınması və təqsirkarların cəzalandırılması haqqında Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit olunub. "Memorial" Hüquq-Müdafiə Mərkəzi də təsdiq edir ki, Xocalıya hücum zamanı erməni silahlı dəstələrinin dinc əhaliyə qarşı hərəkətləri Cenevrə Konvensiyasına, həmçinin, Ümumdünya İnsan Haqları Bəyannaməsinin maddələri kobud qaydada ziddiyyət təşkil edir. Xocalı sakinlərinə qarşı soyqırımı aktı Dağlıq Qarabağ bölgəsinin işğalı zamanı Ermənistan Respublikasının həyata keçirdiyi etnik təmizləmə siyasətinin yeni bir mərhələsi olub. Əlbəttə ki, ermənilər Xocalı soyqırımını törətməkdə siyasi və strateji məqsəd güdürdülər. Belə ki, Xocalı Qarabağda strateji əhəmiyyətli mövqeyə malik idi, həm də düşmənin məkrli niyyətlərinin reallaşmasına ən böyük maneə rolunu oynayırdı. Dağlıq Qarabağı işğal etməyi qarşılarına əsas məqsəd kimi qoyan Ermənistan silahlı birləşmələri, nəyin bahasına olursa-olsun, bu maneəni aradan qaldırmağa çalışırdılar.

## XOCALININ QAPISI ÜZÜMÜZƏ AÇIQDIR

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Yevlax rayonunda keçirilən danışıqların nəticəsində Xocalı rayonu 24 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının nəzarətinə keçdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı rayonunda oldular. Dövlətimizin başçısı və birinci xanım rayonun qədim Şuşakənd kəndinin ərazisinə baxış keçiriblər. Daha sonra Prezident İlham Əliyev Xocalı rayonunun Dağdağan, Naxçıvanlı, Pirlər kəndlərində olub. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində Xocalı separatçılardan təmizlənib. Artıq Azərbaycan əzəli torpaqlarına qayıdıb.

***Nəzakət ƏLƏDDİNQIZI***



## "Dövlətimizin zəfərə imza atması medianın fəaliyyətində dönüş yaratdı"

"Dövlətimizin yürütdüyü modernləşmə kursu, cəmiyyətin həyatının bütün sahələrində müşahidə olunan yeniləşmə, informasiyalı cəmiyyətə keçid dövlət və cəmiyyətin qarşısında yeni vəzifələr müəyyənləşdirir". SİA xəbər verir ki, bu sözləri çıxışı zamanı Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov deyib.

Ə.İsmayılov bildirib ki, Azərbaycan Respublikasında fikir, söz və məlumat azadlığı ölkə Prezidentinin siyasi kursunun və qazanılan nailiyyətlərin tərkib hissəsidir: "44 günlük Vətən müharibəsində ölkə başçısının rəhbərliyi ilə dövlətimizin möhtəşəm zəfərə imza atması bütün sahələrdə olduğu kimi medianın fəaliyyətində də dönüş yaratdı. Vətən müharibəsi dövründə Prezident İlham Əliyevin dünyanın nüfuzlu mətbuat orqanlarına verdiyi müsahibələr beynəlxalq auditoriyanın diqqətini cəlb etməklə, tarixin zəfərin qazanılmasında son dərəcə əhəmiyyətli olmuşdur".

## Quram Quramişvili: Heydər Əliyev regionda həyata keçirilən irimiqyaslı layihələrin müəllifidir



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünyaşöhrətli siyasətçidir. Məhz bu dahi insanın gərgin əməyi və ciddi səyi nəticəsində ölkələrimiz arasında əlaqələr yeni müstəvidə inkişaf edib və daha da möhkəmlənib.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Quram Quramişvili söyləyib. Nazir müavini deyib: "Heydər Əliyev xalqlarımız arasında dostluğun banisidir. Dahi şəxsiyyət Heydər Əliyev regionda həyata keçirilən irimiqyaslı layihələrin müəllifidir. Məhz onun uzaqgörən siyasəti nəticəsində regionda həyata keçirilən irimiqyaslı layihələr bölgədə sabitliyin, enerji təhlükəsizliyinin əsasını qoyub. Heydər Əliyev gürcü xalqının da yaxın dostudur. Gürcü xalqı onun xatirəsini daim yaşadacaq".

# Pis sülh, yaxşı sülh

*Ermənistan-Azərbaycan danışıqlarında reallıq və nikbinlik*

**MDB dövlət başçılarının Sankt-Peterburqda keçirilən qeyri-rəsmi sammitində Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan prezidenti İlham Əliyev altı ayda ilk dəfə görüşüblər. Bundan əvvəl onlar iyulun 15-də Brüsseldə danışıqlar aparıblar. Tərəflər 2024-cü ilin əvvəlində Cənubi Qafqazın 30 ildən artıq gözlədiyi sülh müqaviləsini imzalaya biləcəklərini istisna etmirlər. Sammit ərəfəsində Roma Papası Fransisk də Ermənistan və Azərbaycanı sülhə çağırıb. "Qoy buna humanitar təşəbbüslər, məcburi köçkünlərin qanuni və təhlükəsiz şəkildə evlərinə qayıtması, eləcə də hər bir icmanın dini adət-ənənələrinə və ibadət yerlərinə qarşılıqlı hörmət kömək etsin", - pontifik bunu Milad bayramı münasibətilə katoliklərə və bütün xoşməramlı insanlara müraciəti zamanı deyib.**

Dövlət Dumasının komitə sədri Leonid Kalaşnikov Ermənistanla Azərbaycan arasında mümkün sülh sazişinin imzalanması barədə danışarkən bildirib ki, tərəflərin hədəfə çatmasına bir addım qalıb. "Baş verən hadisələr maraqlara uyğun inkişaf edib. Yalnız üç regional qonşu - Azərbaycan, Ermənistan və Rusiya danışıqları aparmalıdır. Mən həmişə bu barədə danışmışam", - deyə siyasətçi vurğulayıb. Eyni zamanda, Kalaşnikov qeyd edib ki, İrəvan Bakı və Ankara ilə münasibətləri yaxşılaşdırmalıdır, çünki onlar qonşudurlar. Düzdür, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov əvvəlcədən bəyan etmişdi ki, dekabrın 26-da nə Azərbaycan və Ermənistan başçıları arasında ikitərəfli görüş, nə də Vladimir Putinin iştirakı ilə üçtərəfli format nəzərdə tutulmayıb. Buna baxmayaraq, tərəflər MDB sammiti çərçivəsində ünsiyyət qurmaq imkanı əldə ediblər. Məsələn, Pavlovskda səfər zamanı hamı bələdçini dinləyərkən Rusiya lideri aktiv jestlə erməni həmkarına nə isə deyirdi. Əliyev də Paşinyanı könülsüz salamladı. Əgər Azərbaycan Prezidenti digər həmkarlarını qucaqlayırsa və ya sadəcə olaraq onlara səmimi gülümsəyirdisə, Ermənistanın baş nazirinə tərəf belə baxmırdı.







## Dinc əlsıxma

Bu arada Azərbaycan hakimiyyəti Ermənistana sülh müqaviləsinin mətni ilə bağlı təkliflərini çatdırıb. Azərbaycan diplomatiyasının rəhbəri Ceyhun Bayramovun dediyi kimi, Bakı bir aya yaxın onların üzərində işləyib. Eyni zamanda o, danışıqlar prosesinə real və nikbinliklə baxdığını vurğulayıb. "Eyni zamanda, biz sülh müqaviləsindən danışanda başa düşməliyik ki, o, hər şeyi 100 faiz həll etməyəcək", - Bayramov qeyd edib: "Bu, ölkələr arasında prinsipləri müəyyən edən, normal mehriban qonşuluq münasibətlərinin əsasını yaradan sazişə çevrilə bilər. Azərbaycan dövləti öz gücü ilə bütün addımları atacaq".

C.Bayramovun erməni həmkarı A.Mirzoyanla görüşünün 2024-cü ilin əvvəlində ABŞ-da baş tutacağı gözlənilir. Eyni zamanda, İrəvan bundan əvvəl guya tərəflərin bir-birinə inamını artırmaq üçün Ermənistan-Azərbaycan şərti sərhədindən qoşunların çıxarılmasını təklif etmişdi. Bakı hələlik sülh müqaviləsi və ya sərhəd olmadığını əsas gətirərək bundan imtina edib, yəni Ermənistan ordusu Azərbaycan ərazisinə hücum edə bilər.

Ermənilərin hesablamalarına görə, 2021-ci ildən 2022-ci ilə qədər Azərbaycan 50 kvadratmetrdən 127 kvadrat kilometrə qədər ərazini "işğal" edib. Buna baxmayaraq, Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirib ki, respublika sülh müqaviləsinin imzalanmasından demarkasiya və delimitasiyanı ayırmağa razı ola bilər. Onun sözlərinə görə, sərhədi çəkmək üçün illər lazım ola bilər və ölkəyə tezliklə sülh lazımdır.

"İlk növbədə Azərbaycan Ermənistanın bütün şərtlərinə razılıq verməsini gözləyir, çünki qalib odur. İkinci Qarabağ müharibəsindən sonra üç il ərzində bu yanaşma üstünlük təşkil etdi. Eyni zamanda, Bakı 6-cı dəfə İrəvana öz tələblərini göndərir", - Çarlz Universitetinin doktorantı Bəhruz Səmədov bildirib. Onun sözlərinə görə, Azərbaycan hakimiyyəti üçün ideal variant Zəngəzur dəhlizinin açılması və azərbaycanlıların Ermənistana qayıtması olardı. Lakin son vaxtlar Bakı bu məsələdə təzyiqləri azaldıb. Belə ki, yerli mətbuat hələ də Ermənistanın Zəngəzur (Sünik) bölgəsindən Naxçıvana gedən yoldan yazır, lakin ölkə rəhbərliyi bu yolda təkid etməyi dayandırıb. "Eyni zamanda, Azərbaycan nöqteyi-nəzərindən sülh müqaviləsində Ermənistanın heç vaxt Qarabağla bağlı heç bir tələb irəli sürməyəcəyi bəndi olmalıdır", - Səmədov bildirib: "Bu yolla son qələbə əldə olunacaq. Bu gün bunun daha çox simvolik mənası var, çünki ermənilərin Qarabağa nə vaxtsa qayıtması çətin ki baş tutsun. Bununla yanaşı, Bakı sülh müqaviləsində sərhədin çəkilməsini qeyd etmək istəmir, çünki bu məsələdə hələ də kifayət qədər mübahisəli məsələlər var".

Ekspert qeyd edib ki, Azərbaycan Ermənistandan yeddi anklavın qaytarılmasını gözləyir, lakin özü də nəyisə qaytarmaq istədiyini bəyan etmir. Bu, əvvəlki iki ildə Azərbaycan ordusunun nəzarətinə keçən ərazilərə də aiddir. Gələcəkdə bu, İrəvana təzyiq rıçağına və Bakı üçün təhlükəsizlik təminatlarından birinə çevrilə bilər.

Orbeli Mərkəzinin eksperti Conni Melikyan hesab edir ki, son üç ildə Ermənistanın Azərbaycanla danışıqlarda əldə etdiyi əsas nailiyyətlər əsirlərin mübadiləsi və Zəngəzur dəhlizi məsələsinin qismən də olsa aradan qaldırılması olub. Bununla belə, o vurğulayıb ki, hətta bu işlərdə də irəliləyiş kifayət qədər azdır. Azərbaycanda 25-ə yaxın erməni hələ də həbsdədir və bütün kommunikasiyaların blokdan çıxarılması hələ də ciddi müzakirə olunmayıb. "Əgər sonda Bakı və İrəvan sülh müqaviləsi imzalayacaqsa, o zaman o, təhlükəsizlik təminatlarını ehtiva etməlidir. Eyni zamanda, tərəflərin indi müzakirə etdikləri 10 noyabr 2020-ci il tarixli birgə bəyanatın daha yüngül variantını xatırladır. Orada yalnız real vəziyyəti düzəltmək olar, sərhəd, ticarət və başqa hər şey sonradan həll olunacaq. Ola bilsin ki, yaza qədər vəziyyət dəyişəcək, ya da sərhəddə yenidən hərbi toqquşmalar başlayacaq", - Melikyan qeyd edib.

Rusiya Beynəlxalq Münasibətlər İnstitutunun Qafqaz sektorunun rəhbəri Vadim Muxanov hesab edir ki, münaqişə tərəfləri iki-üç ay əvvələ nisbətən sənədi imzalamağa daha yaxındırlar, lakin danışıqların uğurla nəticələnəcəyini gözləməyə əsas yoxdur. "Danışıqların gedişinə payızda Qarabağda baş verən hadisələr və Ermənistan hakimiyyətinin ritorikasının dəyişməsi təsir edib. Lakin İrəvanın rəsmi mövqeyi hələ də erməni əhalisinin əhəmiyyətli bir hissəsi tərəfindən dəstəklənmir". Muxanov hesab edir ki, Paşinyan sazişin imzalanmasının onun istefası ilə nəticələnə biləcəyindən narahatdır. Beləliklə, o, həmvətənlərini inandırmaq üçün vaxt qazanmağa çalışır. Ekspertin fikrincə, Paşinyan danışıqlardan imtina edə bilməz, çünki Bakı sənədi almaq istəyir və lazım gələrsə, güc tətbiq etməyə hazırdır. İrəvanın təhlükəsizliyini təmin etmək üçün kifayət qədər resursları yoxdur. Ermənistanın baş naziri təqibçi rolundadır və bu keyfiyyətdə yalnız hərəkət sürətinə təsir edə bilər, istiqamətə deyil.

Ardı Səh. 6



Əvvəli Səh. 5

# Pis sülh, yaxşı sülh

## Ermənistan-Azərbaycan danışıqlarında reallıq və nikbinlik

Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyaya iki günlük səfəri çərçivəsində Sankt-Peterburqda MDB-nin qeyri-rəsmi sammitində Azərbaycan prezidenti İlham Əliyevlə əl sıxıb. Tərəflər ”Yeni ildən tezliklə” imzalana biləcək sülh müqaviləsi üzərində fəal işləməyə davam edirlər. Bir gün əvvəl Paşinyan 2024-cü ildə sədrliyi Ermənistana keçəcək Avrasiya İqtisadi İttifaqının (Aİİ) sammitində iştirak edib. Sankt-Peterburqdakı çıxışında Ermənistanın baş naziri xəbərdarlıq edib ki, o, müstəsna olaraq iqtisadi problemləri həll etməyə çalışacaq və Aİİ-dən ”siyasi və geosiyasi məqsədlər üçün” istifadə cəhdlərinin qarşısını alacaq.

### Sülh müqaviləsinə doğru

MDB-nin Sankt-Peterburqda keçirilən qeyri-rəsmi sammitində Avrasiya İqtisadi İttifaqının sammitində liderlərin görüşü davam etdirilib. Bu tədbirlərin hər birində nyusmeykerlərdən biri Ermənistanın baş naziri Nikol Paşinyan olub. Ermənistan liderinin diqqəti İrəvanın postsovet məkanında inteqrasiya strukturları ilə bağlı xüsusi mövqeyi və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi ilə bağlı qeyri-müəyyənlik səbəbindən yönəlib. İl ərzində Paşinyan KTMT və MDB çərçivəsində görüşlərdən qəti şəkildə imtina edib. Noyabrda o, Minskdə keçirilən KTMT sammitinə getməyib və ”KTMT tərəfdaşlarının bu qərara anlayışla yanaşacağına” ümid etdiyini bildirib, oktyabrda isə MDB-nin Bişkek sammitində iştirak etməyib. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Putin və Paşinyan arasında ayrı-ayrı danışıqların Sankt-Peterburqda baş tutub-tutmayacağı ilə bağlı sualı cavablandırarkən deyib ki, onların qarşıdan gələn hadisələrlə bağlı kənarda ünsiyyət qurmaq imkanı olacaq.



Paşinyanın İlham Əliyevlə də qısa görüşü olub. Bu assosiasiyaya üzv olmayan Azərbaycan prezidenti Aİİ-nin sammitində iştirak etməyib, ikinci tədbirə - MDB-nin Tsarskoye Seloda keçirilən Yeni il qabağı qeyri-rəsmi sammitinə qatılıb. Görüşün açılışında Azərbaycan və Ermənistan liderləri bir-birini əl sıxaraq salamlayıblar. ”Hazırda ayrı-ayrı ikitərəfli görüşlər planlaşdırılmır. Amma sammitin kənarında hamı ünsiyyət qura biləcək”, - Dmitri Peskov mənalı şəkildə qeyd edib və bununla da Azərbaycan və Ermənistan liderlərinin Sankt-Peterburqdakı vəziyyətində hər hansı improvizasiyanın mümkünlüyünü aydınlaşdırıb.

Ötən həftənin sonunda Ermənistan parlamentinin sədri Alen Simonyan bəyan etdi ki, tərəflər sərhədin delimitasiyası və demarkasiyası məsələsini həll etməmişdən əvvəl İrəvanla Bakı arasında sülh müqaviləsi imzalana bilər. Sərhədin delimitasiyası və demarkasiyası prosesinin uzun müddət davam edə biləcəyinə işarə edən Alen Simonyan əlavə edib: ”Əsl sülh istəyən ölkə bu cür məsələləri maneə kimi görməyəcək”. Onun sözlərinə görə, sülh müqaviləsinin imzalanması ”iki cəmiyyət üçün sülh mühiti yaradacaq”. Bu etirafdan bir gün əvvəl İrəvanın mövqeyində irəliləyiş olduğunu göstərən oxşar bəyanatı Azərbaycan prezidentinin köməkçisi Hikmət Hacıyev verib. Londonda səfərdə olarkən H.Hacıyev sərhədlərin delimitasiyası məsələsinin sülh müqaviləsi məsələsindən ayrı həll oluna biləcəyi fikrini bildirdi: ”35 illik münaqişə artıq başa çatıb. İndi Azərbaycanın strategiyası sülhə nail olmaqdır. Bunun üçün hər iki tərəfdən hərəkət tələb olunur. Azərbaycan üçün sülh gündəminə gedən yolda artıq heç bir maneə yoxdur”.

### İqtisadiyyat başqa, dostluq başqa

Nikol Paşinyanın Sankt-Peterburqa səfəri ilə bağlı ikinci gərginlik süjeti onun həmkarları ilə ünsiyyəti və Aİİ liderlərinin görüşündə iştirakı ilə bağlı olub. Minskdə keçirilən KTMT sammitində Nikol Paşinyanın iştirak etməməsindən sonra Ermənistanın baş nazirinin ilin sonunda iqtisadi ittifaqdakı tərəfdaşlarla görüşə razı olub-olmayacağı sualı yaradırdı. Belarus prezidenti Aleksandr Lukaşenko qeyd edib ki, ”Mən Paşinyanın Sankt-Peterburqa uçacağını bilirdim. Onunla danışanda ona dedim: ”Nikol Vovaeviç, sən Sankt-Peterburqa uçacaqsan. Bu iqtisadi formatdır. Hərbi-siyasi blokdan KTMT-dən incimək olar, bu isə iqtisadiyyatdır”. Onda dedim ki, Peterburqa uçacaq. Mən o vaxt da ona dəstək olmuşam, indi də dəstəkləyirəm. Ermənistan iqtisadi cəhətdən ölmək istəsə, biz onu itirə bilərik”.

Ermənistanın Qərbə üz tutacağı təqdirdə onu nələr gözləyə biləcəyinə misal olaraq, Aleksandr Lukaşenko Əfqanıstanın taleyini göstərib. ”Amerikalılar gedəndə Əfqanıstanda insanların necə yıxıldığını, şassidən yapışdığını Ermənistan görmədi? Ermənistandan da eyni şəkildə istifadə edib zibilə atacaqlar. Sizcə, bu baş verməyəcək? Belə olacaq, bu onların siyasətidir”, - deyə Belarus prezidenti Qərbin siyasətinə işarə vurub.



Aİİ liderlərinin Sankt-Peterburq görüşünə zəif halqa kimi qatılan Ermənistanın növbəti ildə, prinsipə uyğun olaraq bu assosiasiyanın yubiley ilində onun sədri olacağı xüsusi məna kəsb edir. Nikol Paşinyan Aİİ sammitindəki çıxışında ölkənin bu quruma sədrliyinin sırf keçmiş sovet respublikaları arasında iqtisadi əməkdaşlıq məsələlərinə aid olacağını və heç bir şəkildə İrəvanın xarici siyasətinə təsir etməyəcəyini açıqlayıb.

**V.VƏLİYEV**

# 2023-cü il media üçün necə yadda qaldı?

**Bildiyiniz kimi, Yeni ilin daxil olmasına sayılı günlər qalıb. Təbii ki, hər kəsin 2024-cü ildən müxtəlif gözləntiləri var. Gəlin görək, media rəhbərlərinin Yeni ildən gözləntiləri nələrdir. SİA mövzu ilə bağlı media kapitanları arasında sorğu keçirib.**

**Mətbuat Şurasının İdarə Heyətinin üzvü Ceyhun Musaoğlu:** "2023-cü il ərzində media ilə bağlı ən yaddaqalan məqam "Media haqqında" qanunun qəbulu oldu. Çünki köhnə KİV haqqında qanun 18 il idi ki, nə yenilənirdi, nə də dəyişirdi. Halbuki bu 18 il ərzində həm beynəlxalq jurnalistikada, həm





də Azərbaycan jurnalistikasında xeyli dəyişikliklər olmuşdu. Qanunda da yeni dövrün tələblərinə uyğun əlavə dəyişikliklərə ehtiyac var idi.

Medianın İnkişafı Agentliyinin fəaliyyətini isə yüksək qiymətləndirirəm. Qısa müddətdir yaranmasına baxmayaraq sələfi ilə müqayisə edilməyəcək dərəcədə dinamik fəaliyyət göstərir. Jurnalistlərə həm peşəkarlıq, həm də maddi baxımdan dəstək göstərilir.

O cümlədən, bu il Mətbuat Şurasının tərkibi yeniləndi. MŞ-nin də fəaliyyəti dinamikləşib və indiki qaydalara uyğun fəaliyyət göstərə bilir. Lakin bir şeyi qeyd etməliyəm ki, jurnalistikada bir qədər peşəkarlıq baxımından axsaqlıq var. Belə ki, sosial şəbəkələrə uduzuruq. Doğrudur, sosial şəbəkələr hər zaman dəqiq yaymasa da, daha sürətli xəbər yayır. Media isə daha dəqiq və obyektiv xəbər yaydığı üçün bir qədər gecikir. Başqa bir problem isə mediada daha çox şou xarakterli yazıların tüğyan etməyə başlamasıdır. Bu, üzücü məqamdır. Ümumilikdə isə bu ili media cameəsi üçün qənaətbəxş hesab etmək olar. 2024-cü il ölkəmiz üçün düşərli olsun. Son üç il ərzində media da torpaqların işğaldan azad edilməsində böyük fədakarlıq göstərdi. Buna görə də mediaya eşq olsun!".

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev:** "2023-cü il müstəqil Azərbaycan tarixində xalqımızın müqəddəratında həlledici illərdən biri oldu.



Xalq Prezident İlham Əliyevin ətrafında birləşməklə, sözün əsl mənasında, dövlət-xalq birliyini nümayiş etdirdilər. Bu il ölkəmizin böyük diplomatik, siyasi uğurlar ilidir. Məhz bu il Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olundu, ölkənin suverenliyi özünün real məzmununa qayıtdı. Belə ki, 23 saat 43 dəqiqə davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan suverenliyini bütün ərazilərində bərpa etdi. Azərbaycan bayrağı Xankəndidə dalğalandı, "Dağlıq Qarabağ" mövhumu birdəfəlik ləğv olundu. Noyabrın 8-də Xankəndidə hərbi paradın keçirilməsi ilə Azərbaycan suverenliyini dünyaya elan etdi. Daha sonra Xankəndi stadionunda ilk futbol oyununun keçirilməsi isə birdəfəlik revanşist qüvvələrin arzularını puç etdi. Bu mənada 2023-cü il Azərbaycan üçün ən əlamətdar illərdən biridir.

2023-cü ilin aprelində Laçın yolunun tam nəzarətə götürülməsi ilə Xankəndidəki separatizm yuvası tam şəkildə xaricdən təcrid olundu.

Bu il həm də mühüm hadisələrdən biri Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunması ilə yadda qaldı. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalandı. Bu sərəncam çərçivəsində il ərzində ölkə ərazisində bir sıra tədbirlər təşkil olundu. Ümummilli Lider Heydər Əliyevin KİV-lərin fəaliyyətinə necə qayğı ilə yanaşması haqqında dəyirmi masalar, müzakirələr keçirildi.

Bundan başqa noyabrın 24-də Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirildi. Dövlətimiz bu sammitə yüksək səviyyədə ev sahibliyi etdi. Türk Dövlətləri arasında iqtisadi və siyasi əməkdaşlığın inkişafına dair böyük töhfələr verildi.

Dekabr tarixində isə ilk dəfə Azərbaycan və Ermənistan dövlətləri birgə bəyanat verdilər. Bəyanat heç bir vasitəçi və ya üçüncü tərəf olmadan, Azərbaycan və Ermənistanın baş siyasi qurumları tərəfindən verilib. Onlar əsirlərin dəyişdirilməsinə razılaşdılar. Əlalxüsus bu, iki ölkə arasında sülh müqaviləsinə gedən yolda çox mühüm xarakteristik hadisə kimi yadda qaldı.

Bu il həm də media üçün çox əlverişli il olub. 30 il həsrətdən sonra ilk dəfə "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumu keçirildi. Bu bizim üçün çox qürurverici bir hadisə idi. Həmçinin, Azərbaycan mediası informasiya savaşında da öz sözünü dedi, xarici KİV-lərdə, sosial şəbəkə təbliğatlarında ön sıralarda oldu. Biz illərlə erməni xülyalarının formalaşdığı stereotipləri dağıdaraq, Azərbaycanı layiqincə təbliğ edə bildik".

**"Bakı-Xəbər" qəzetinin baş redaktoru**



**Aydın Quliyev:** "Media haqqında" qanuna uyğun olaraq media orqanlarının və jurnalistlərin reyestrinin aparılması və bu işin başa çatdırılması ilin ən böyük media hadisələrindən biri kimi xarakterizə oluna bilər. Media strukturlarının, xüsusilə də onlayn və çap media orqanlarının dövlət qeydiyyatına alınması əlamətdar bir hadisədir. Çünki dövlətin nəzarətində müəyyən peşəkarlıq kriteriyaları və göstəriciləri əsasında kimlərin media orqanı sayıldığını aydınlaşdırmaq mümkündür. Jurnalistlərin də media reyestrində qeydiyyatdan keçməsi jurnalist hüquqları və onun müdafiəsi çərçivəsinin xeyli dərəcədə konkretləşməsi deməkdir. Bu da mövcud sahədə dövlət siyasətinin əsaslarını müəyyənləşdirilməsi üçün əhəmiyyətlidir.

"Media haqqında" yeni qanunun təsdiqlənməsi və ilin əvvəlindən fəaliyyətə başlaması da önəmli hadisələrdən biridir. Çünki onlayn və çap medianın dövlət himayəsi altında inkişaf etdirilməsi institutunun yeni bir mərhələyə keçməsi deməkdir. Dövlətin mediaya dəstəyi Azərbaycan praktikasında artıq çoxdan formalaşmış bir modeldir. Medianın bəzi vergilərdən azad edilməsi də bu il ərzində nəzərəçarpan hadisə kimi yadda qalacaq".

**Redaktor.az saytının baş redaktoru Aqil Aslan:** "Yola saldığımız 2023-cü ildə onlayn mediada müsbət tendensiyalar müşahidə etdim. Bunlardan biri istinadlarla bağlıdır. Bilirsiniz ki, tez-tez jurnalistlər onlara məxsus özəl xəbərlərin istinadsız və hətta öz imzasını qoyaraq verilməsindən şikayətlənirdilər. "Media haqqında" yeni qanunun qüvvəyə minməsindən sonra Medianın İnkişafı Agentliyinin bu məsələlərə nəzarət mexanizmi yaradılıb və istənilən informasiyanın ilk olaraq hansı saytda dərc olunduğunu çox asanlıqla müəyyənləşdirmək olur. Görünür, bu səbəbdən də onlayn mediada çalışanlar başqa bir saytın məlumatını oğurlamağa səy göstərmirlər və istinad etməyə məcbur olurlar. Nadir hallarda bəzi saytlarda yenə də bu problemi görürük. Məsələn,



bizim saytın bir özəl xəbərini başqa bir tanınmış sayt istinad etmədən paylaşmışdı. Zəng edib bildirdik ki, bizim informasiyanı olduğu kimi vermisiz, amma istinad etməmisiniz. "Baxıb, düzəliş edərik" dedilər, amma sonra gördük ki, xəbərin tərtibatında, mətndə bir qədər dəyişiklik edib sanki özününküləşdiriblər və beləcə yenə də istinad etmədilər. Yenə təəssüf ki, belə hallar da baş verir.

Bütün bunlara baxmayaraq, qarşıdakı ildə onlayn mediada bəhs etdiyim bu problemin tamamilə aradan qaldırılacağına inamım var. 2024-cü ildə qeyri-ciddi mətbuatın, yeni hamımızın "reket" və ya "dilənçi" mətbuat kimi tanıdığımız saytların da sıradan çıxacağını gözləyirəm".

***Ləman Sərraf***

# Qərbin ənənəvi ÇEVRİLİŞ PLANI



**Dekabrın 24-ü axşam saatlarında Serbiyanın paytaxtında dövlət çevrilişinə cəhd baş tutmayıb, amma hadisələr həyəcan təbili üçün kifayət edir. Çünki çevriliş cəhdlərinin arxasında Qərbin dayandığı və qərbyönlü qüvvələrin təhriki artıq göz önündədir. Doğrudur, bu çevriliş planları, gözlənilən etiraz aksiyaları barədə Serbiya hakimiyyətinin əvvəlcədən xəbərdar edilməsi sayəsində çirkin niyyətlər baş tutmayıb, yerli polis hər şeyi tez bir zamanda yatıra bilib, amma bu, o demək deyil ki, Serbiyanın və onun timsalında Qərbin burun soxduğu ölkələrin üzərindən qara buludlar artıq çəkilib.**

Təxribatlarla, etiraz aksiyaları ilə, çevriliş planı ilə bağlı Serbiyaya öncədən xəbərdarlıq edilməsi, özü də bu xəbərdarlığın Rusiya təhlükəsizlik xidməti tərəfindən edilməsi bir çox məqamlara aydınlıq gətirmək üçün kifayət edir. Belə ki, uzun müddətdir Qərblə qarşıdurma vəziyyətində olan Rusiya bu barədə xəbərdarlıq edibsə, deməli, çevriliş planlarının arxasında məhz qərbyönümlü qüvvələrin dayandığı artıq bəlli olur. Həm də bütün proseslər qərbyönlü rəngli inqilabların yeni seriyasının başlanğıcına çox bənzəyir. Ssenari də, rollar da eyni şəkildədir və təxribatçıların kütləyə rəhbərlik etməsindən tutmuş, aqressiv fəalların polis üzərinə doğru hərəkət etməsinə qədər bütün hadisələr eyni qaydada cərəyan edir. Xatırladaq ki, Gürcüstanda, Ermənistanda, Ukraynada da belə olub. Amma bu dəfə qərbyönlü qüvvələr, çevriliş niyyətində olanlar nəzərə almayıblar ki, Serbiya hakimiyyəti təxribat barədə əvvəlcədən məlumat alıb və hazırlaşmağa vaxt tapıb. "Bu barədə xəbərdarlıq edən xidmətlərin məlumatları bizdə var idi və ilk növbədə, Rusiya təhlükəsizlik xidməti bizə belə bir məlumat vermişdi", - deyən Serbiyanın baş naziri Ana Brnabiç etiraf edib ki, Serbiya hakimiyyəti etiraz aksiyaları, çevriliş planı ilə bağlı əvvəlcədən məlumatlandırılıb və onlar hazırlıqlı olublar. Deməli, belə çıxır ki, Qərb bu dəfə hədəf seçdiyi ölkəni qəflətən yaxalaya bilməyib və planları da bu səbəbdən, hələlik, baş tutmur.

Sözsüz ki, etiraz nümayişlərinə hər zaman ölkə müxalifəti təhrik edilir və bu baxımdan da müxalifətin ötən parlament seçkilərinin nəticələrinin ləğvini tələb etməsi də başadüşüləndir. Hətta bir həftə əvvəl qərbyönlü qüvvələrin hazırkı prezident Aleksandr Vucicə uduzaraq uğursuzluğa düçar olması fonunda bütün bunlar tamamilə anlaşılandır. Məğlubiyyətlə qarşılaşan, parlamentə təsir imkanları məhdudlaşan Serbiya müxalifətinin məhz Qərbin təhriki fonunda aqressivliyi də təəccüb doğurmur. Amma diqqətçəkən daha bir məqam odur ki, prezident Vucic özü proseslərə təmkinlə reaksiya verdi. Onun təmkinlə reaksiya verməsinin səbəbi isə odur ki, serblərin onu dəstəklədiyinə əminliyi var. Məhz elə bu əminlik, həm də serblərin öz rəhbərinin yanında olması, ona inanması Qərbin istədiyinə nail olmasına mane olur.

"Hazırda heç bir inqilab baş vermir. Biz ehtiyatlı davranırıq və nümayişçilərin heç birinə zərər verməməyə çalışırıq. Bu gün Serbiyanın hər yerindən ölkəsini qorumaq istəyən minlərlə insandan çağırış, dəstək var. Xahiş edirəm ki, evdə qalın. Biz demokratiyanı və insanları qorumaq üçün kifayət qədər güclüyük. Əgər onlar inqilabdan danışırlarsa, Serbiyanın müstəqilliyini məhv etməyə çalışırlar", - deyən Serbiya prezidenti Aleksandr Vuçiç öz ölkəsinin vətəndaşlarına əslində, məsələnin nə yerdə olduğunu qısa da olsa çatdırıb və onlar deyəndə də kimi nəzərdə tutduğu bəllidir. Sözsüz ki, Vucic, onun öz ölkəsinə məxsus siyasət yürütməsi, heç bir asılılığı qəbul etməməsi, təhriklərə boyun əyməməsi qərbyönümlülər üçün, Avropa hakimiyyəti üçün çox qıcıqlandırıcı görünür. Brüsselin xəttinə zidd müstəqil siyasət yürütməsi məhz onun özünü də, hakimiyyətini də hədəfə almaq üçün bəhanə olub. Amma dövlət çevrilişinə cəhd faktının özü artıq Qərb mediasında belə ciddi müzakirələr doğurub. Ekspertlərin fikrincə, Vucicin özünü belə təhrik etməyə çalışırlar.

Diqqətə çatdıraq ki, oxşar hadisələr 2014-cü ildə Ukraynada baş vermişdi. Hətta Belqradın meri Aleksandr Şapiç bunu serblərə tamamilə vaxtında xatırladıb. "Məsələ burasındadır ki, biz Maydanın necə başladığını unutmuşuq. Əvvəlcə 500, 1000, sonra 1500 nəfər toplaşdı və Maydan belə başladı. Amma bu gün onlar artıq əvvəlki duruma, vəziyyətə malik deyillər və bundan sonra da olmayacaq", - deyə xatırlatma edən Belqrad meri Aleksandr Şapiç Qərbin hansı oyunlar qurduğunu, nəticədə də ölkələrin başına nələr gətirdiyini çox məharətlə yada sala bilib. Nəzərə alsaq ki, rəsmi məlumata görə, Serbiyada keçirilən aksiyada 2 500 nəfərə yaxın iştirakçı olub, onların içərisində də 30-dan bir qədər çox ən aqressiv etirazçılar var imiş, deməli, eyni Qərb ssenarisinin olduğu artıq zərrə qədər də şübhə doğurmur.

Doğrudur, indi Belqradda iğtişaşların nəticələri aradan qaldırılmaqdadır. Meriya binasının fasadında sındırılan plitələr, barelyeflər, pəncərələr bərpa edilir. İnteryerə qismən ziyan vurulduğu göz önündədir. Düzdür, zərər hələ hesablanmayıb və indi onun heç vaxtı da deyil. Çünki əsas məsələ yeni iğtişaşların qarşısının alınmasıdır. Əks halda həmin o bərpa edilən binanın yenidən təmirinə ehtiyac yarana bilər. Deməli, ilk növbədə, Qərbin planlarını pozmaq, iğtişaşların yenidən baş verməsini əngəlləmək tələb olunur. Ümid edirik ki, prezident Vuçiç bunu necə edəcəyini yaxşı bilir və buna nail olacaq. Çünki qeyd etdiyimiz kimi, serblərin onu dəstəklədiyinə əmindir.

"Heç bir inqilab baş vermir", - deyən Serbiya prezidenti Aleksandr Vucic Belqrad administrasiyasının müxalifət tərəfdarları tərəfindən ələ keçirilməsi cəhdini ölkənin suverenliyinə "xarici faktor"un səbəb olduğu hücum adlandırıb. Serbiya lideri meriya yaxınlığındakı etirazları inqilab hesab etmədiyini qətiyyətlə bildirib. "Və səhnələr dramatik olsa da, biz ölkəmizi və şəhərimizi sevirik, kiminsə evimizi dağıtmasına öyrəşməmişik. Heç bir inqilab baş verməyəcək, bundan heç bir uğur əldə etməyəcəklər", - deyə Vucic təcili müraciəti zamanı xüsusilə vurğulayıb və əmin edib ki, Serbiyada hakimiyyətin zorakılıqla dəyişdirilməsinə imkan verməyəcək. O, əmin edib ki, ölkədə bütün siyasi proseslər hüquqi və demokratik şəkildə aparılacaq. Vucic qeyd edib ki, Serbiya, etirazçıların hərəkətlərinə baxmayaraq, azadlığını, müstəqilliyini və öz suverenliyini qoruyacaq. Bu isə o deməkdir ki, artıq Serbiya prezidenti ölkə vətəndaşlarına bildirir ki, proseslər məhz rəhbərlik etdiyi ölkədə çevriliş planıdır və niyyət də ölkənin müstəqilliyini, suverenliyini təhlükə altına qoymaqdır, hansıki özü də, hakimiyyət komandası da buna qarşıdır.

Serbiyanın baş naziri Ana Brnabiçin də öz növbəsində Rusiya kəşfiyyat xidmətlərinə gözlənilən iğtişaşlar barədə xəbərdarlıq etdiyinə görə təşəkkür etməsi belə göstərir ki, bu ölkə hakimiyyəti baş verən hadisələrin haradan qaynaqlandığını detallarına qədər bilir. "Mən həqiqətən də, xüsusən bu gecə Serbiyanın müdafiəsinə qalxmağın vacibliyi diqqətə çatdıran və bütün bu məlumatlara sahib olan, bunu bizə xəbər verən Rusiya kəşfiyyat xidmətlərindən olan insanlara təşəkkür etməyi vacib hesab edirəm", - deyən Brnabiç demək olar ki, mühafizə tədbirlərinin qərbyönümlü qüvvələrdən olduğuna ehyam vurmuş olub. Eyni zamanda Belqrad merinin səlahiyyətlərini icra edən Aleksandar Sapic bildirib ki, müxalifətin şəhərin mərkəzində təşkil etdiyi iğtişaşları "Maydanlaşma" da adlandırmaq olar. Oxşar fikri Rusiyanın Serbiyadakı səfiri Aleksandr Botsan-Xarçenko dekabrın 25-də Serbiya lideri ilə görüşdən sonra səsləndirib. Onun sözlərinə görə, Belqradda keçirilən etiraz aksiyaları Aleksandr Vucicin gücünü zəiflətmək üçün Qərb tərəfindən dəstəklənir. "Bütün bu etirazlar qondarma "Maydan inqilabları"nın texnologiyaları, prinsipləri və sxemləri əsasında təşkil edilib və indi də Serbiyada həyata keçirilir", - deyə Rusiyanın Serbiyadakı səfiri bildirib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da Qərbin "Maydan çevrilişi" texnikasından istifadə etməsinə diqqət çəkib. "Kollektiv Qərbin "Maydan çevrilişləri" üsullarından istifadə edərək ölkədə vəziyyəti sarsıtmaq cəhdləri göz qabağındadır", deyə Zaxarova "İzvestiya"ya müsahibəsində qeyd edib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov da eyni fikirdə olduğunu gizlətməyib. "Üçüncü qüvvələr, o cümlədən xaricdən Belqradda oxşar iğtişaşlar törətmək üçün cəhdlər var", - deyə Peskov bildirib. Bütün bunlar isə onu deməyə əsas verir ki, iğtişaşların arxasında qərbin dayandığı və bunun da çevriliş planı olduğu artıq hər kəsə bəllidir. Bəllidir ki, Qərb Serbiyanı özünə tabe etmək niyyətindədir. Bunun üçün də Qərb ölkələri Serbiyada hakimiyyətə Vaşinqtonun və Brüsselin idarə edə biləcəyi daha əlverişli olan adamları gətirməyə çalışır və Vuçiç kimi qətiyyətli birinin hakimiyyətini də bu səbəbdən devirməyə çalışır. Elə məhz ənənəvi çevriliş planını da Serbiyada bu məqsədlə işə salıb.

Bir sıra ölkələrin dövlət rəsmilərinin, hətta siyasətçilərinin, politoloqlarının fikirləri tamamilə üst-üstə düşür və Qərbin indi də özünün ənənəvi çevriliş planlarını məhz Serbiyada gerçəkləşdirmək istəyi birmənalı şəkildə qəbul olunur.

Göründüyü kimi, bir çox ölkə rəsmiləri, siyasətçiləri Serbiyada baş qaldıran prosesləri məhz Maydan hərəkatı ilə müqayisə edirlər. Bu, heç də səbəbsiz və təsadüfi deyil. Hamının eyni vaxtda, eyni qənaətdə olması hər halda deyilənlərin həqiqət olduğunu isbatlayır. Niyə, nə səbəbə Qərb çevriliş planı hazırlayır? Çevriliş planı, bir ölkə hakimiyyətinin devrilməsi, həmin ölkədə çevriliş edilməsi Qərbin nəyinə lazımdır? Nə səbəbə Qərb ayrı-ayrı ölkələrdə çevriliş etməkdə maraqlıdır? Bütün bu suallar heç şübhəsiz ki, hər kəsi düşündürür və ələlxüsus da Qərbin iç üzünün açılması fonunda olduqca diqqətçəkən məqam hesab olunur.

Məhz Ermənistan kimi marionet ölkələrdən fərqli olaraq, Serbiya kimi bir çox ölkələr Qərbin diqtə etdiyi siyasəti yürütməkdən imtina edir və öz müstəqil siyasətini yürüdür. Bu zaman Qərbin nə planlaşdırdığı, nə qərarlaşdırdığı, hansı niyyəti güddüyü nəzərə belə alınmır və elə ümumilikdə qərbyönümlüləri də qıcıqlandıran bu olur. Məsələn, Qərb Ermənistan kimi cırtdan bir ölkəni istədiyi kimi idarə edib, istədiyini də hakimiyyətə gətirdikdən sonra, yəni çevriliş etdikdən sonra başqa ölkələrdə də bunu etmək üçün şirniklənməyə başlayır. Ukraynada, Gürcüstanda, Ermənistanda baş verən hadisələrin fonunda görürük ki, Qərbin planları, məhz çevriliş planları heç də xeyir, mənfəət gətirmir, əksinə, problemlər, fəlakətlər gətirir. Hər halda, vəziyyət dərk etmək üçün Ukraynanın mövcud durumunu xatırlamaq yetərlidir. Həmçinin, Ermənistanda hökm sürən xaos da, istənilən anda vətəndaş müharibəsinin gözlənilməsi də bu mənada vəziyyəti tam olaraq izah etmiş olur. Amma bununla belə, əfsus ki, hələ də Qərbin ənənəvi çevriliş planlarına, çirkin niyyətinə alət olmaq istəyənlər tapılır. Məhz buna görə də qərbyönümlü dövlətlər öz niyyətlərindən, çevriliş planı ilə başlanılan məkrli məqsədlərindən əl çəkmirlər. Əks halda, beləcə davam etməzdi və Serbiyada da öz ənənəvi çevriliş planlarını işə salmaq barədə belə düşünə bilməzdilər.

Serbiyada baş verənlər nə birincidir, nə də axırıncı. Çünki Qərb qətiyyən əl çəkən kimi görünmür və hələ hansısa dövlətlərdə bundan sonra da iğtişaşlar törədəcəyi heç təkzib oluna da bilməz. Hələ də diqtə etmək niyyətlərini gizlətməyənlər heç iğtişaş törətmək məqsədlərini də ört-basdır etmək fikrində deyillər. Bəzən hətta bunu açıq şəkildə etməkdən də çəkinmirlər. Bizim özümüzə də bəzi məqamlar çox "tanış gəlir". Azərbaycan dövlətinin də sütunlarını "laxlatmaq" istədikləri, bunun üçün USAİD kimi təşkilatın "öz içimizdən olan baltalar"ından istifadə edilməsi, onları alət olaraq istifadə etmələri qətiyyən unudulan deyil. Unudulan deyil ki, Qərb məhz bir sıra təxribat xarakterli cəhdləri ilə elə Azərbaycanda da müvafiq planı işə salmaq niyyəti güdüb. Çünki məhz Azərbaycan da Qərbin diqtəsini qəbul etməyən bir müstəqil, suveren ölkədir və öz milli maraqları çərçivəsində müstəqil siyasət də yürükməkdədir. İllər, onillər boyu qərbyönümlü ölkələr Azərbaycana təsir etməyə çalışsalar da, artıq keçmişdə qalan Qarabağ problemini unutdurmaq istəsələr də, hətta bunun əvəzində böyük vədlər belə versələr də, dövlətimiz, xalqımız buna qətiyyən razı olmayıb. Razı olmamaqla yanaşı, həm də öz torpaqlarını öz gücü, öz qüdrəti, öz potensialı ilə işğaldan azad edib, ərazi bütövlüyünü, süverenliyini tam təmin edib və müstəqil dövlət olaraq, başqalarının diqtəsinə qətiyyən imkan vermədən öz siyasətini yürüdür. Elə Qərb də bundan qıcıqlanır və rəsmi Bakını məhz Vaşinqtonun diqtəsi ilə hərəkət etməyə vadar etmək üçün də bütün variantlara əl atanlar "suyu bulandırmağa" çalışıblar. İllər boyu bunun üçün xüsusi ciddi-cəhdlə çalışanlar böyük maliyyə vəsaitləri də sərf ediblər. Məsələ burasındadır ki, əvvəla, dövlətimiz Qərbin bu çirkin niyyətini tam zamanında ifşa edə bilib və bir sözlə, mükəmməl bir şəkildə zərərsizləşdirib. Digər tərəfdən də, xalqımızın ölkə hakimiyyətinə inamı, etibarı, etimadı, ümumxalq birliyi, milli həmrəyliyimiz Qərbin gözünü kor etmiş olub və planlarını darmadağın edib. Bu gün artıq Qərb eyni ssenari ilə yenə də ölkəmizə soxulmağa ciddi cəhd etsə də, bilməlidir ki, məhz xalqımızın birliyi, həmrəyliyimiz, dövlətimizə, dövlət rəhbərimizə olan xalq dəstəyi buna imkan verə bilməz.

***İnam Hacıyev***

# "Heydər Əliyev. 100 faktın tarixi" kitabının təqdimat mərasimi keçirilib




Dekabrın 27-də Bakı Kitab Mərkəzində "Heydər Əliyev. 100 faktın tarixi" kitabının təqdimat mərasimi keçirilib. Ümummilli lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş qəhrəman şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra kitabın məsləhətçisi, Milli Məclisin deputatı Elnur Allahverdiyev "Heydər Əliyev ili" çərçivəsində hazırlanan nəşrin əhəmiyyəti haqqında fikrilərini söyləyib. Kitabda Ümummilli Liderin sovet Azərbaycanına və müstəqil Azərbaycana rəhbərliyi dövründə, eləcə də SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini və Naxçıvan Ali Məcisinin sədri kimi fəaliyyət göstərdiyi illərdə həyata keçirdiyi işlər haqqında 100 maraqlı faktın toplandığını diqqətə çatdırıb. Qeyd edib ki, Ulu Öndər həyatının bütün məqamlarında atdığı hər bir addımda Azərbaycan xalqının rifahını, doğma Vətəninin maraqlarını düşünüb.

Kitabın məsləhətçisi, Milli Məclisin deputatı Soltan Məmmədov Ulu Öndərin Azərbaycan tarixində müstəsna yeri olan bir dövlət xadimi kimi yaddaşlarda hər zaman yaşayacağını bildirib. Qeyd edib ki, məhz Ümummilli Liderin müdrikliyi, qətiyyəti, uzaqgörənliyi sayəsində ötən əsrin 70-ci illərində Qarabağın Azərbaycandan qoparılmasının qarşısını almaq mümkün olub. Deputat vurğulayıb ki, bu gün Azərbaycanın qazandığı uğurların əsasında Heydər Əliyevin siyasəti və bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin müdrik addımları dayanır.

Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli Ulu Öndərin siyasi irsinin hər zaman elmi tədqiqatlar üçün zəngin mənbə olduğunu vurğulayıb. Ümummilli liderin Azərbaycan tarixindəki əvəzsiz xidmətləri barədə faktların ictimaiyyətə çatdırılması istiqamətində təşəbbüslərin təqdirəlayiq olduğunu qeyd edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ulu öndərin ideyalarını müvəffəqiyyətlə həyata keçirdiyini və ölkəmizin öz ərazi bütövlüyünü, suverenliyini tam təmin etmiş güclü dövlət kimi yeni inkişaf mərhələsinə çıxdığını diqqətə çatdırıb.

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Ümummilli Liderin fəaliyyətini əks etdirən kitabların ictimaiyyət tərəfindən maraqla qarşılandığını vurğulayıb. Kitabda əksini tapmış faktların ulu öndərin çoxşaxəli fəaliyyəti haqqında mühüm məqamları əks etdirdiyini bildirib.

Milli Məclisin deputatı Etibar Əliyev Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi birinci və ikinci dövrlərdə, habelə Sovet İttifaqında məsul vəzifə tutduğu və Naxçıvanda fəaliyyətdə olduğu illərdə Azərbaycan xalqının böyük dəstəyinə arxalanaraq, gərgin mübarizə nəticəsində dövlət müstəqilliyinin əbədi, daimi və dönməz olması üçün müstəsna xidmətlər göstərdiyini qeyd edib. AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova Ümummilli Liderin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərinin müxtəlif aspektlərdən araşdırılması ilə bağlı təşəbbüslərin vacib əhəmiyyətə malik olduğunu vurğulayıb.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi kitabın məziyyətləri haqqında danışıb. Ümummilli Liderin fəaliyyətinin hər bir gününün, siyasi fəaliyyəti dövründə qəbul etdiyi qərarların Azərbaycan xalqının xoşbəxt gələcəyinə xidmət etdiyini bildirib. Kitabın elmi redaktoru, tarix elmləri üzrə fəlsəfə doktoru Yəhya Babanlı nəşrin məzmunu, strukturu haqqında ətraflı məlumat verib. Qeyd edib ki, "Heydər Əliyev. 100 faktın tarixi" kitabında Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan Respublikasının qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan tarixindəki roluna dair 100 mühüm tarixi fakt yer alıb. Nəşrdə Ümummilli Liderin müsahibələri, çıxışları və bəyanatları, eləcə də səfərləri və müxtəlif görüşləri barədə maraqlı məlumatlar əks etdirilib.

Qeyd edək ki, "Heydər Əliyev İli" çərçivəsində ərsəyə gətirilmiş, geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş kitabın İdeya müəllifləri və məsləhətçiləri Milli Məclisin deputatları Elnur Allahverdiyev və Soltan Məmmədovdur.

# "Bu günlərdə Xocalının köçünü gözləyirik"

*MÜNASİBƏT*

**"Bu gün Azərbaycanda çox əlamətdar tarixi hadisələr baş verir. Həm də sevindirici hadisələrdir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisinin deputatı Məlahət İbrahimqızı deyib.**

O, sözlərinə belə davam edib: "Bunlardan biri də 30 ildən artıq öz torpaqlarını tərk etmiş bacı-qardaşlarımız, məcburi köçkünlərimizin köç məsələsidir. İnsan inana bilmir, riqqətə gəlir, göz yaşlarını saxlaya bilmir. 1992-ci ildə o şaxtalı gecədə Xocalıda baş vermiş soyqırımından sonra indi Xocalı sakinləri öz yurdlarına qayıdırlar. Prezidentin tapşırığı ilə Xocalı yenidən qurulur. Orada beynəlxalq standartlara cavab verən yaşayış məskənləri salınır. Bu asan məsələ deyil. Dünyada müharibə yaşayan ölkələr var. Amma müharibədən qısa müddət sonra vurulan yaraları sağaltmaq, problemləri həll etmək hər dövlətin işi deyil. Biz dövlətimizin gücü ilə fəxr etməliyik".




Deputat sözlərinə belə davam edib: "Sovet dövründə 41-45 müharibəsində şəhid olan, itkin düşən, qazi olan insanların hələ də problemləri həll olunmayıb. Müharibə bitər-bitməz şəhid, qazi ailələri üçün qəsəbələr salındı. İstər 1-ci, istərsə də 2-ci Qarabağ müharibəsində şəhidlərimizin mənzil problemi həll olunmaq üzrədir. Möhtərəm Prezidentimizin də dediyi kimi 2025-ə qədər şəhid ailəsi, qazilərin mənzil problemi qalmayacaq. İşğaldan azad olunmuş ərazilərdə də yenidənqurma işləri görülür. Bir tərəfdən infrastruktur, digər tərəfdən də beynəlxalq səviyyəli layihələr həyata keçirilir. Hava limanları, Zəngəzur koridorunun inşası ilə bağlı layihələr icra olunur. Yaşıl enerji sahəsində investisiya qoyuluşu tətbiq olunub. Dünyanın 2030 gündəliyindən tələb etdiyi məsələlərin Azərbaycanda həll olunması ilə bərabər, "Böyük Qayıdış" - köç prosesi həyata keçirilir.

Görün, ölkəmiz nə qədər böyük layihələr həyata keçirir. Bu, hər azərbaycanlını sevindirir. Fəxr olunasıdır. Bu günlərdə Xocalının köçünü gözləyirik. Hər vətəndaşın ən böyük nisgili Xocalı soyqırımı idi. Beynəlxalq hüquq çərçivəsində soyqırımı törədənlərə layiqincə cavab verilməyincə bu məsələdən geri durmayacağıq. Köç prosesi təkcə Xocalı istiqamətində deyil, bütün azad edilmiş ərazilərdə gedir. Qarabağ sakinləri 2024-cü ilin yeni təqvim ilini öz isti ocaqlarında qeyd edəcəklər".

***Söylü Ağazadə***

# Azərbaycan-Belarus münasibətlərində strateji tərəfdaşlıq

**Müstəqil Azərbaycanın bir çox dünya dövlətləri ilə eləcə də - Belarusla olan münasibətləri möhkəm dostluğa, qarşılıqlı etimada və strateji tərəfdaşlığa əsaslanır. Dövlət başçılarının qarşılıqlı olaraq ölkələrə rəsmi səfərləri dövlətlərarası əlaqələrə öz müsbət təsirini göstərib. Müasir dövrdə dövlətlər arasındakı münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəlib. Dövlət başçılarının qarşılıqlı səfərləri iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə, qarşılıqlı etimad və dialoqa mühüm töhfə verir. Dövlətlər arasında kənd təsərrüfatı, iqtisadiyyat, hərbi-texniki, sosial-müdafiə, hüquq-mühafizə və digər sahələri əhatə edən sənədlər imzalanıb.**



Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşü məhz mövcud münasibətlərin dostluq və qarşılıqlı etimada söykəndiynə əsaslanır. Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı bir daha məmnunluqla qeyd edilib, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirilib. Yüksək səviyyəli görüşlərin və təmasların əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulanıb. Dövlət başçıları əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini



ifadə edərək gələcək təmaslar və əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

### "AZƏRBAYCANLA BELARUS BEYNƏLXALQ TƏŞKİLATLARDA AKTİV QARŞILIQLI FƏALİYYƏT GÖSTƏRİR"

Xatırladaq ki, 2006-cı ilin fevral ayında Belarusun Azərbaycanda, həmin ilin avqust ayında isə Azərbaycanın Belarusda Səfirlikləri açılmışdır. İki ölkə arasında diplomatik əlaqələr 1993-cü ilin iyun ayının 11-də qurulmuşdur. Həmin zamandan 30 il ötür. Bu münasibətlər xalqlarımızı birləşdirən mehriban dostluq ənənələrinə, qarşılıqlı hörmətə və etimada söykənir. Vurğulayaq ki, 18-19 noyabr 2018 -ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri, 28-29 noyabr 2016-cı il tarixində Belarus Respublikasının Prezidenti A.Lukaşenkonun Azərbaycana rəsmi səfəri, 13-14 aprel 2021- ci il tarixində Belarus Respublikasının Prezidenti A. Lukaşenkonun Azərbaycana işgüzar səfəri bu əlaqələrin daha da möhkəmlənməsinə səbəb olmuşdur.

Hazırda Azərbaycan və Belarus arasında bir çox sahələrdə eləcə də hərbi-texniki sahədə də uğurlu əməkdaşlıq vardır. Bildiyimiz kimi, Azərbaycanla Belarus arasında hərbi-texniki sahədə qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi barəsində Anlaşma Memorandumu imzalanıb. Azərbaycan Prezident çıxışlarının birində vurğulamışdı ki, bizim əməkdaşlığımızın istiqamətlərindən biri də hərbi-texniki sahədir: "Biz bu əməkdaşlıqdan çox razıyıq, məhsulların keyfiyyəti və səmərəliliyi çox yüksəkdir. Buna görə də, təsadüfi deyil ki, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın artıq yaxşı tarixi, kifayət qədər böyük həcmləri və genişlənməyə yaxşı meyili var." Bir sözlə, Azərbaycan və Belarus arasında olan strateji əməkdaşlıq əlaqələri hər iki ölkənin perspektiv inkişafı baxımından, xüsusi əhəmiyyət kəsb edir. Onu da bildirək ki, Azərbaycanla Belarus beynəlxalq təşkilatlarda aktiv qarşılıqlı fəaliyyət göstərir, bütün məsələlərdə bir-birini dəstəkləyirlər. "Əgər hər hansı beynəlxalq təşkilatda Belarusla, yaxud hər hansı rəhbər orqanlara namizədliyi irəli sürülən bu ölkədən namizədlə əlaqədar məsələ qaldırılırsa, Azərbaycan qeyd-şərtsiz dəstək göstərir. Eyni münasibəti biz Belarus tərəfdən də görürük. Bu, bizim münasibətlərimizin yüksək səviyyəsinin göstəricisidir. Biz, həmçinin, ya Azərbaycanın, ya da Belarusun iştirak etmədiyi, amma başqa ölkənin iştirak etdiyi təşkilatlarda da bir-birimizi dəstəkləyirik və bu da təbiidir. Bu, bizim beynəlxalq siyasət, beynəlxalq münasibətlər, regional problemlər və beynəlxalq təhlükəsizliklə əlaqədar məsələləri müzakirə etdiyimiz kimi təbiidir. Bütün bunlar dostlar arasında təbiidir", - deyə Prezident bildirmişdir.



### AZƏRBAYCANLA BELARUS ARASINDA İQTİSADİ-TİCARƏT ƏLAQƏLƏRİ

Ölkələrimiz arasında çoxşaxəli müqavilə-hüquq bazası yaradılıb. Azərbaycanla Belarus arasında iqtisadi-ticarət əlaqələr daha da genişləndirilir. Belarus şirkətlərinin işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakı, investisiyaların təşviqi buna nümunədir. Hazırda Azərbaycan ilə Belarus arasında qarşılıqlı ticarət fəaliyyətində 270-dən çox müəssisənin iştirakı ilə 300 çeşiddən artıq malın iki ölkə ərazisində qarşılıqlı təchizatı həyata keçirilir. Onlarla Azərbaycan şirkəti Belarus müəssisələrinin respublikamızda qanuni nümayəndəsi və təmsilçisi fəaliyyət göstərirlər. Ölkəmizdə Belarus kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən xüsusi təyinatlı mağazalar fəaliyyət göstərir.

İqtisadi sahədə əlaqələrin genişləndirilməsində birbaşa əmtəə ticarəti ilə yanaşı, qarşılıqlı faydalı birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi də getdikcə mühüm əhəmiyyət kəsb edir. Belarus maşınqayıranları ilə Gəncə Avtomobil Zavodu arasında əməkdaşlıq sənaye kooperasiyası sahəsində səmərəli qarşılıqlı fəaliyyətin gözəl nümunəsi kimi ölkələr üçün əlamətdar layihəyə çevrilib. Belarus tərəfi Azərbaycana lift tədarükünün artırılmasında, eləcə də müvafiq istehlak həcmləri üçün onların yığılması istehsalının yaradılmasında maraqlıdır.

Təbii ki, iki ölkənin rəhbərliyi səviyyəsində sıx münasibətlər əlaqələrin demək olar ki, bütün sahələrində öz əksini tapıb.

Göründüyü kimi, Azərbaycan və Belarus arasında olan strateji əməkdaşlıq əlaqələri hər iki ölkənin perspektiv inkişafı baxımından, xüsusi əhəmiyyət kəsb edir. Bu əlaqələr, eyni zamanda, regionun tərəqqisi ilə bağlı yeni baxışlar formalaşdırır.

***Zümrüd BAYRAMOVA***

# Rusiyalı ekspert: ”Postsovet məkanında ən müstəqil ölkə Azərbaycandır”



**Sankt-Peterburqda keçirilən MDB-nin qeyri-rəsmi sammitini politoloq Aleksandr Razuvayev ”Moskva-Baku” portalı üçün təhlil edib. Ekspertin müsahibəsini oxucularımıza təqdim edirik.**

***- Aleksandr Yuryeviç, Rusiya prezidentinin təşkilatçılığı ilə Sankt-Peterburqda MDB-nin ənənəvi qeyri-rəsmi sammiti keçirildi. Sammitin yekununu necə dəyərləndirmək olar?***

- Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqda təntənəli şəkildə qarşılandı. Bundan əlavə, Vladimir Putinlə Azərbaycan liderinin bir-birini necə səmimi salamlaması diqqət çəkir. Bu, olduqca əhəmiyyətlidir. Azərbaycan Rusiyanın Zaqafqaziyada əsas tərəfdaşıdır. MDB-də ən şəffaf və konstruktiv tərəfdaş və müttəfiqlərdən biridir.

Bu gün Azərbaycan çox yaxşı statusa malikdir, suveren ölkə statusudur. Putin dəfələrlə deyib ki, öz milli maraqlarını müdafiə edən güclü suveren dövlətlərlə işləmək çox rahatdır: onlarla razılığa gəlmək olar. Postsovet məkanında buna ən yaxşı nümunə Azərbaycandır. MDB məkanında qeyri-suveren oyunçuya misal olaraq isə Ermənistanı göstərmək olar, onun Qərblə yaxınlaşma istiqamətində indiki addımları təkcə özünə deyil, həm də MDB ”orqanizmində” sabitliyə pis təsir göstərəcək. Ermənistan Birlikdə sabitliyin pozulmasının aparıcısıdır. Bölgədə xarici oyunçuların maraqlarını təşviq edən belə bir tərəfdaşla işləmək çətindir.

Azərbaycanı yəqin ki, bəzi məqamlarda MDB dövlətləri arasında vasitəçi adlandırmaq olar. Axı o, Birlik strukturunda regional çoxluğu təşkil edən Mərkəzi Asiya ölkələri ilə əlaqələri gücləndirir. Rusiya-Azərbaycan münasibətləri isə strukturu gücləndirən alətdir.

***- Dəyişən dünyada bir struktur kimi MDB-nin perspektivləri haqqında nə deyə bilərsiniz?***

- MDB çoxtərəfli iqtisadi və siyasi təmaslar platforması kimi yaradılmışdı. İndi Birlik özünü yenidən formatlaşdırmaq və Avrasiya inteqrasiya nöqtəsinə çevrilmək imkanına malikdir. MDB ikinci nəfəs tapa bilər. Məsələn, Azərbaycan MDB-nin bir hissəsidir, Aİİ-nin deyil. İlham Əliyev isə Avrasiya İqtisadi İttifaqı ölkələrinə Azərbaycanın potensialından yararlanmağı təklif etdi. Həm iqtisadi, həm də siyasi baxımdan bu təklif MDB üçün vacibdir, hər mənada konstruktivdir və Birlik üçün sabitləşmə nöqtələrindən birinə çevrilir. MDB fundamental məsələlərdə birliyə nail olmalıdır.




***- Rusiya MDB məkanında liderliyini qoruyub saxlamağa çalışır... Sankt-Peterburqda keçirilən eyni illik qeyri-rəsmi sammit "qalstuksuz" danışıqlar üçün əla formatdır.***

- Bu həm də Rusiya üçün təcrid olunmadığını nümayiş etdirmək üçün bir fürsətdir. Rusiya indi qonşuları ilə yaxınlaşma vektorunu götürüb. Və bu düzgündür. Ağıllı insanlar isə həmişə razılığa gəlirlər. İstək olanda bu asandır.

Bundan başqa, Rusiyanın Böyük Avrasiya Tərəfdaşlığı konsepsiyası var. Hansı ki, son dərəcə vacibdir. Və bu gün bu konsepsiya daha da geniş şəkildə işləyir. Rusiya diqqətini Qlobal Cənuba yönəltməyə başlayıb. Bura həm də Afrika, Latın Amerikası və Asiya-Sakit okean regionu ölkələri daxildir. Bildiyimiz kimi, bütün bunlar bir neçə ildir ki, Qoşulmama Hərəkatının effektiv liderinə çevrilmiş Azərbaycanın yanaşmalarına çox bənzəyir.

***- Ermənistanın baş naziri yenə də Aİİ və MDB sammitlərinə gəldi, baxmayaraq ki, bundan intriqa qurdu. Eyni zamanda, Nikol Paşinyan Aİİ sammitində strukturun siyasi, hətta geosiyasi məqsədlər güdməməsi ilə bağlı eyham kimi bir cümlə atdı... O niyə gəlmişdi, Rusiyaya və Rusiyayönlü strukturlara qarşı davamlı tənqidlər fonunda nə demək istəyirdi?***

- Nikol Paşinyanın Aİİ-nin siyasi və ya geosiyasi məqsədlər güdməməsi ilə bağlı dediyi söz şübhəsiz ki, Rusiyaya qarşı növbəti iddiadır. İddialara görə, Paşinyan Moskvanın Ermənistana qarşı məhdudiyyətlərinə və İrəvanın anti-Rusiya hücumlarına görə bəzi erməni mallarının tədarük xəttinə eyham vurur. Yəni, Paşinyan əslində İrəvanın hansısa anti-Rusiya və Qərbyönümlü hücumlar etməsini istəyir, amma onun bununla heç bir əlaqəsi yoxdur. Buna çox rahat olmaq deyilir. Paşinyan iki stulda oturmağa çalışır. İqtisadi baxımdan Ermənistanın Aİİ-də olması sərfəlidir. Digər tərəfdən, Ermənistan ilk növbədə hərbi-texniki əməkdaşlıq baxımından Qərbə doğru gedir. Moskva Ermənistanın hərəkətlərinə baxır və ”Yaxşı, görək nə edə bilərsən”, - deyir.

Ermənistanın Aİİ-də iştirakdan çox yaxşı faydaları var və onlardan imtina etməyəcək. Ona görə də Paşinyan görüşlərə gəlib. Və mənim fikrimcə, Putinlə Paşinyan arasında təkbətək söhbət olub və bu söhbət zamanı Rusiya lideri ondan artan qərbyönlü vektor və anti-Rusiya əhval-ruhiyyəsi ilə bağlı izahat tələb edib.

***- Əliyevlə Paşinyan MDB sammitində bir-birini salamlayıblar. Daha sonra Dmitri Peskov bildirib ki, Azərbaycan və Ermənistan "sülh danışıqlarının yekunlaşdığını təsdiqləyir". Sammit çərçivəsində Əliyevlə Paşinyan arasında da danışıqlar aparılıb.***

- Yaxşı olardı ki, tərəflər sülh müqaviləsi imzalasınlar. Biz inanırıq ki, Ermənistanın mövqeyinə baxmayaraq, bu, Rusiyayönümlü platformada baş verəcək.

**Tərcümə - Elçin Bayramlı**

## “Fransa casus fəaliyyət sərgiləyir”

### POLİTOLOQ

“Fransanın bölgə ilə bağlı həyata keçirmək istədiyi agentura fəaliyyətinin ifşa edilməsi, həm də Fransanın Azərbaycandakı səfirliyinin iki əməkdaşının ”persona-non-grata” elan edilməsi Azərbaycan-Fransa münasibətlərindəki çatların daha da dərinləşdiyini göstərir. Bütövlükdə isə Fransa təkcə Azərbaycana qarşı haqsızlıq etmir. Hesab edirəm ki, Fransanın casus qalmaqalı ilə bağlı Gürcüstan, Moldova və ümumiyyətlə mediada daha əvvəl adı hallanan ölkələrin bir çoxu ciddi formada etirazlarını bildirəcək”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tural İsmayılov deyib. Politoloq bildirib ki, dünyada neo-müstəmləkəçiliyin qalası olan və çağdaş dövrdə yalnız Fransa tərəfindən davam etdirilən istilaçı müstəmləkə siyasətinin təzahürlərindən biri həm də casus fəaliyyətidir: ”Nəzərə almaq lazımdır ki, Fransanın Azərbaycana qarşı siyasəti, eyni zamanda bütün beynəlxalq prinsiplərin tapdalanması deməkdir. Fransa nə öz qanunvericiliyinə, nə də BMT daxil olmaqla, dünyanın digər böyük təşkilatlarının qətnamələri və çıxartdıqları qərarlara hörmət etmir. Nəticədə Azərbaycan-Fransa münasibətlərindəki çatlar hər dəfə dərinləşir.Fransa öz coğrafi sərhədlərinə daxil olmayan ölkələrdə də müstəmləkəçilikdən gözü doymur. Başqa regionları da qarışdırmaq, özünün təsir dairəsini genişləndirməyə çalışır. Amma Azərbaycan hüquq-mühafizə orqanlarının və güc strukturlarının yüksək peşəkarlığı və ayıq-sayıqlığı Fransa da daxil olmaqla bir çox ölkələrin bizim ölkə və bölgə ilə bağlı həyata keçirmək istədiyi çirkin ssenarilərin qarşısını alır. İstənilən casus şəbəkəsinin fəaliyyətinin qarşısı Azərbaycanda peşəkarlıqla alınır”.



## “Bu adam siyasi pozğundur”

### REAKSİYA



“AXCP sədri Əli Kərimlinin qalib Azərbaycanı məğlub Ermənistanla müqayisə etməsi və həmin müqayisədə Ermənistanı daha üstün tutması ondan xəbər verir ki, bu adamda yarım qram da olsa millilik qalmayıb, bu adam siyasi pozğundur, bu adam yaramazın, vicdansızın təkidir!”. Bu sözləri SİA-ya açıqlamasında deputat Elşən Musayev deyib.Deputat sözlərinə belə davam edib: ”Bir dəfə də söyləmişdim: Qarabağın işğaldan azad olunması ermənilər qədər Kərimlini və onun ətrafındakı qaragüruhçuları da yandırıb, üzüb, bədbəxt edib. Ona görə özlərinə yer tapa bilmirlər, ona görə hər fürsətdə mövcud hakimiyyətə qarşı hədyanlar yağdırırlar, ona görə antimilli fəaliyyətlərini günü-gündən gücləndirirlər.Ləyaqətsizlik, alçaqlıq, tərbiyəsizlik Əli Kərimlinin alnına yazılıb, ruhuna hopub, qanına işləyib. Danışdıqca batır, batdıqca çabalayır, çabaladıqca rəzilləşir. İnanın, bilmirəm nə deyim. Söz tapmaqda çətinlik çəkirəm ki, bu şərəfsizin simasızlığını aydın, detallı təsvir edə bilim. Yəni, leksikonumuzda elə söz yoxdur. Ən ağır ifadə də Kərimli üçün kompliment kimi səslənir. AXCP sədrinin riyakarlığı, xainliyi elə bir həddədir ki, bütün çərçivələri, xəttləri, sərhədləri keçib. O, adamlıqdan çıxıb. O, vəhşi reflekslərlə yaşayır. O, ermənidən betər ermənidir”.

**Ayşən Vəli**

# “Azərbaycan tolerant xalq olduğunu dünyaya bəyan etdi”

“31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Məlumdur ki, 1813-1828-ci illər ”Gülüstan” və ”Türkmənçay” müqavilələri bir xalqı iki yerə parçaladı. Azərbaycan öz tarixində ilk dəfə Şimali Azərbaycan və Cənubi Azərbaycan olmaqla iki yerə bölündü. Eyni xalq iki yerə ayrıldı, Araz çayı sərhəd oldu. Həmişə imkan düşəndə, sərhəd nəzarətsiz qalanda Arazın o tayındakı qohumlar bu tayındakı qohumlarla görüşür, dərdləşirlər. 70 illik sovet dönəmi Araz çayını dəhşətli sərhədə çevirdi. Nə o tərəfdən, nə bu tərəfdən olan insanlar bir-birinə yaxınlaşa bilmirdi”. Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.

Onun sözlərinə görə, neytral zona deyilən ərazi mövcud idi: ”1989-cu ildə sərhəd dirəklərinin yandırılması Azərbaycan xalqını yaxınlaşdırdı. 1991-ci ilin dekabrın 16-da Naxçıvan Ali Məclisinin sədri Dünya Azərbaycanlılarının Həmrəylik Gününün keçirilməsi ilə bağlı qərar imzaladı. Bu qərar bütün Azərbaycanı əhatə etdi. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra həmrəylik məsələsi ortaya qoyuldu. Ümummilli lider Heydər Əliyev tərəfindən bu siyasət uğurla davam etdirildi.




## Bu, nə üçün lazım idi?

Birinci, Azərbaycan torpaqları işğal olunmuş, xalq qaçqın, köçkün həyatı yaşayırdı. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü təhlükə altında idi. Buna görə də dünya azərbaycanlılarının həmrəylik gününə ehtiyac var idi. Dünyanın harasında yaşamasından asılı olmayaraq Ümummilli lider dünya azərbaycanlılarına müraciətində deyirdi ki, harada yaşayırsınızsa, yaşayın, Azərbaycanı unutmayın, onun həqiqətlərini dünyaya yayın”.

Deputat sözlərinə belə davam edib: ”Bu həmrəylik Azərbaycana uğur gətirdi. Beləliklə, hər il 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunur. Təbii ki, Qarabağın işğalı xalqımızı daha da mətinləşdirdi. Bunun nəticəsidir ki, 44 günlük Vətən müharibəsində düşmən darmadağın edildi. Azərbaycan torpaqları azad olundu. Qələbədə dünya azərbaycanlılarının da böyük rolu oldu. Onlar da Azərbaycan həqiqətlərini, ermənilərin faşist təxəyyüllü insanlar olduğunu, işğalçı olduqlarını, azərbaycanlıların öz tarixi torpaqları uğrunda mübarizə apardıqlarını təbliğ edirdilər.

2023-cü ilin sentyabrında antiterror əməliyyatı ilə Azərbaycanda seperatçı qüvvələr kimi ad çıxaran erməni dəstələri darmadağın edildi. Azərbaycan öz tarixində ilk dəfə bütöv oldu. Üçrəngli bayrağımız bütün bölgələrimizdə dalğalanmağa başladı. Bu qələbə təkcə 10 milyon Azərbaycan xalqının yox, dünyadakı 50 milyona qədər azərbaycanlının uğurudur. 2023-cü il həm də ”Heydər Əliyev İli”dir. Azərbaycanın Ali Baş Komandanı, xalqı, ordusu bu böyük qələbə ilə Heydər Əliyevin 100 ilinə bundan böyük töhfə verə bilməzdi. 100 il əvvəl əsası qoyulan Dağlıq Qarabağ Muxtar vilayəti tarixin arxivinə getdi. Dünya Azərbaycanlılarının Həmrəylik Günü bundan sonra da bizə lazımdır. Çünki hələ Azərbaycana qarşı olan qüvvələr var. Azərbaycan xalqı öz həmrəyliyini nümayiş etdirməklə ərazi bütövlüyünü təmin etdi. Özünün tolerant hüquqlarını, tolerant xalq olduğunu dünyaya bəyan etdi”.

***Söylü Ağazadə***

ŞƏRH + AKTUAL

# Ermənistan müxalifəti: ölkəni itirmişik

**“Ermənistan hakimiyyətinin yüksək iqtisadi artım barədə böyük-böyük danışmaları Ermənistanın Aİ-yə üzvlüyü olmadan qeyri-mümkün olardı”. Bunu jurnalistlərlə görüşündə müxalifətdən olan deputat Hayk Mamicanyan deyib. Onun sözlərinə görə, əgər Paşinyan Ermənistanın Aİ üzvlüyünə qarşı idisə, onda niyə indi bununla belə fəxr edir?**



### Hayk Mamicanyan: ”Ermənistanda 50-dən çox siyasi məhbus var”

Mamicanyan Ermənistanın Gömrük İttifaqına daxil olması ilə bağlı 2013-cü il sentyabrın 3-də qərarın bir gündə qəbul edilməsi barədə bəyanatları qəbuledilməz adlandırıb: ”Biz bütün tərəfdaşlarımızla əlaqə saxladıq və bildirdik ki, biz Ermənistanın mənafeyi üçün addım atmalıyıq. Heç bir rəsmi şəxs bu qərarın bir gecədə verildiyini deməyib. Bu barədə ancaq indiki hakimiyyət danışır”. O eyni zamanda bildirib ki, noyabr ayına olan məlumata görə, Ermənistanda 50-dən çox siyasi məhbus var, bu, görünməmiş böyük bir rəqəmdir.

### Arman Abovyan: ”Ermənilər özlərinə nifrət edirlər, doğulduqları yerə görə bəzi qruplara bölünüblər”





Digər müxalifətçi və erməni politoloq Arman Abovyan isə özünün ”Telegram” kanalında yazıb ki, bütün geosiyasi oyunçulara, güc mərkəzlərinə, nüfuzlu siyasi birliklərə ”erməni məsələsi”nin bağlanması sərfəlidir: ”Daha dünya Ermənistan və ermənilər üçün başağrısı çəkməyəcək. İndi hər kəs rahatdır. Hər yerdə dövlətimizin bölünməsi ətrafında müəyyən beynəlxalq konsensus formalaşıb. Ermənistan anklavlara və dəhlizlərlə bölünərək bizdən qoparılacaq. Biz beynəlxalq güclərin təsir zonasından çıxa bilmirik”.

Onun sözlərinə görə, Ermənistan hakimiyyəti ölkəmizi parça-parça edənlərin hamısı üçün yağlı tikədir: ”Ermənilər özlərinə nifrət edirlər, doğulduqları yerə görə bəzi qruplara bölünüblər. Ermənilər özlərini müdafiə etmək istəmirlər, ermənilər öz şəxsiyyətlərini, dövlət maraqlarını, yaddaşlarını, tarixini, şərəf və ləyaqətlərini könüllü olaraq onları öldürən şəxslərlə ”sülh münasibətlərinə” dəyişməyə razılıq veriblər. Bu sözləri çox sərt ifadə etdim. Amma ətrafdakıların hamısı bizim haqqımızda belə düşünür və indi baş verənlərə görə günahı yalnız hökumətin üzərinə atmaq ağılsızlıqdır. Erməni dövlətçiliyi məhv olmaq üzrədir və bu, bizim sonumuzdur”.

***Afət Tahirqızı***

# Qarabağ və Şərqi Zəngəzurda dini abidələrə verilən yeni həyat

44 günlük Vətən müharibəsində 30 ilə yaxın erməni işğalında olan torpaqlarımız azad olunandan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə birgə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tarixi və əzəli torpaqlarımıza səfəri və həmin məkanlarla bağlı etdiyi paylaşımları hər kəsdə maraq oyadır. Hər bir paylaşımda Xalqa və Vətənə məhəbbət, bağlılıq özünü dərindən göstərir. Bir insanın nəcib hissləri, duyğuları qələmə alınır. Bu cümlələr qısa olsa da ifadə olunan sözlərdə böyük bir ürək görünür. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səmimi hissləri, düşüncələri ilə tanışlıq bir insanın əməllərinə, dünyagörüşünə açılın səhifədir. Hər bir səfərdən, tarixi, önəmli hadisələrlə bağlı paylaşımlar Azərbaycanın ictimai-siyasi, mədəni sosial həyatının reallıqlarının ortaya qoymuş olur. Milyonlarla insanın məhəbbətini qazanan, onların ümid və pənah yerinə çevrilən, ən çətin anlarında yanında olaraq mərhəmət və xeyirxahlığı ön plana çəkmək daxili tələbatdır. Bu insanlığın ən ali və ən yüksək nöqtəsidir. Sosial müdafiəyə ehtiyacı olan insanların maddi durumunun yaxşılaşdırılması, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olmaq həssas münasibətdən, qayğıkeş qəlbdən qaynaqlanır. Fəaliyyətə başladığı zamandan böyük və məsuliyyətli missiyanın daşıyıcısı olmaq yükünü üzərinə götürən Mehriban xanım Əliyevanı həyat missiyasından, məramından uzaq salmır. Əksinə, genişmiqyaslı layihələri ilə məsuliyyyət hissini daha da artırır. Ən çətin anlarda, kədərli, hüznlü günlərdə, eləcə də xalqımızın sevincli, iftixarlı zamanlarında insanların yanında olaraq, onlarla öz fikirlərini bölüşmək əlbəttə ki, Mehriban xanım Əliyevaya ucalıq gətirir. Neçə illərdir ki, ağır və məsuliyyətli yükü çiyinlərinə götürərək yoluna davam edir.













## "BÜTÜN QARABAĞ ƏRAZİSİNDƏKİ MƏSCİDLƏRİMİZDƏ AZAN SƏSLƏRİ EŞİDİLƏCƏK, DUALAR OXUNACAQDIR!"

Bildiyimiz kimi, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayıb. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!" - deyə bildirmişdir.

44 günlük müharibəni Zəfərlə başa vuran Azərbaycanda reallaşacaq layihələrə Mehriban xanım Əliyeva öz töhfəsini verir. Möhtəşəm "Xarı Bülbül" festivalına rəhbərlik etməsi bütün dünyaya səs saldı. 30 ildən sonra "Qarabağ şikəstəsi" Cıdır düzündə səsləndirildi. Xatırladaq ki, 2019-cu ildə məcburi köçkünlərlə Heydər Əliyev Mərkəzində ad gününü keçirərkən, "Bizim vahid arzumuz Qarabağ şikəstəsini Qarabağ torpağında birlikdə eşitməkdir. Mən əminəm ki, Prezidentimizin, dövlətimizin qəti siyasəti və mövqeyi, Allahın köməyi ilə biz buna nail olacağıq"- deyə bildirmişdir. Xoş niyyət Ona xoşbəxt anları yaşatdı.

## TARİXİ YAŞADAN ABİDƏLƏR

Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun layihələri sırasında "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib. Dini ocaqlarımız işğaldan azad olunmuş torpaqlarımızda da bərpa təmir olunur. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin açılışı məhz dini abidələrimizə ayrılan diqqətdir. Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb. İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb. Həmçinin zədələnmiş ön sütunun gücləndirilməsi işləri həyata keçirilib, məscidin döşəməsi bərpa edilib.

Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı, eləcə də Saatlı məscidinin açılışı dini abidələrimizə Heydər Əliyev Fondu tərəfindən ayrılan diqqətdir. Dini ocaqlara olan münasibət Azərbaycanın bugünkü həqiqətlərinin təzahürüdür.

Bəli, azad edilmiş ərazilərimizdə işğal dövründə düşmən tərəfindən dağıdılmış dini-mədəni abidələrimiz bərpa olunur və yeniləri tikilir. Bunlardan biri də Daşaltı kənd məscididir. Daşaltı məscidinin təməli 2021-ci il noyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Hazırda məsciddə, köməkçi binalarda və istinad divarında dəmir-beton və daş hörgü işləri davam edir. Tikinti işlərinin 2024-cü ilin ikinci rübündə başa çatdırılması planlaşdırılır. Həssas qəlbi, iradəsi ilə bütün hadisələrə münasibətində onun xalqa sevgisini, məhəbbətini görürük.

Şuşada Heydər Əliyev Fondu tərəfindən ən geniş bərpa işlərindən biri dağıntıların miqyasına uyğun olaraq Aşağı Gövhər Ağa məscidində də aparılır. Aşağı Gövhər Ağa məscidi XIX əsrdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib. Tarixi mədəniyyət abidəsi olan Aşağı Gövhər Ağa məscidi işğal dövründə ermənilər tərəfindən vandalizmə məruz qalmışdır. Ötən müddətdə yerli və beynəlxalq ekspertlər məscidin mövcud vəziyyətinə dair qiymətləndirmə və layihələndirmə işləri aparıblar. Bərpa işləri Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislərin nəzarəti ilə aparılır. Ötən müddətdə məscidin minarələri bərpa olunub, dam və döşəmə örtükləri dəyişdirilməklə bir sıra təmir işləri həyata keçirilib. Məsciddə bərpa-təmir işləri davam edir.

Qeyd edək ki, Heydər Əliyev Fondu Şuşada bir sıra tarixi mədəniyyət abidələrimizin, o cümlədən məscidlərin bərpa və tikinti işlərini həyata keçirir. Artıq bərpası başa çatmış Yuxarı Gövhər Ağa, Saatlı məscidləri bu ilin may ayında istifadəyə verilib. Hazırda Heydər Əliyev Fondu tərəfindən Şuşada Mamayı və Çöl Qala məscidlərində bərpa işləri, o cümlədən Yeni Şuşa məscidinin tikintisi davam edir.

Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan M.P. Vaqifin büstü öz əvvəlki yerinə qaytarılıb. Görülən işlər kifayət qədərdir. Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük. Bu hər kəsi qürurlandırır.

Əlbəttə ki, vətənpərvərlik, vətənə bağlılıq insanı xalqı, milləti üçün böyük amallara xidmət etməyə sövq edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması onun vətənə bağlılığından irəli gəlir. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən Heydər Əliyev Fondu genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurub. Heydər Əliyev ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Mədəniyyətimizi “mədə niyyəti”nə çevirdik





**Ölkələr öz mədəniyyətini qədim keçmişindən və bu keçmişin təmin etdiyi multikulturalizmdən alır. Bu multikulturalizmin təsirləri sosial həyatdan tutmuş iqtisadiyyata qədər bir çox sahələrdə özünü göstərir. Multikulturalizmin təsir etdiyi sahələrdən biri də qastronomiyadır. Yemək bir mədəniyyətdir və biz bu mədəniyyəti hər gün itiririk.**

Tarixən bizim coğrafiyada yemək insanların qida ehtiyaclarını ödəmək demək deyil, mədəniyyətinin simvolu kimi xarakterizə edilib. Birlik, bütövlük, xoşbəxtlik, uzun-uzadı ailə söhbətlərinin olduğu böyük süfrələr, hazırlanma prosesi günlərlə çəkən, bütün qış boyu istehlak edilən bənzərsiz təamların olduğu zirzəmilər hamının gördüyü, şahid olduğu ənənədir. Bu ənənəni itirmək, daha o qış tədarükü zəhmətinə qatlaşmamaq, zəngin yemək mədəniyyəti yerinə əlüstü qidalanmaq dövrün aktual problemlərindəndir.

Gərgin iş rejiminin, stresin bizim orqanizmimizdə qoyduğu silinməz izlərdən biri də mədə xorasıdır. Səhərlər normal səhər yeməyi - yağ, pendir, qaymaq, yumurta, süd kimi qidalarla qidalanmaq əvəzinə iş yerinin bufetində bir parça ağ bulka və tünd kofe ilə qəlyanaltı edən insanlar çoxdur, elə deyil? Bu yazını oxuyan oxucu, bəlkə sən də elə qidalanırsan. İndi insanların əksəriyyəti günortalar çörək arası fast-foodla qidalanır, mənşəyi bilinməyən qazlı sular içir və bununla da mədə xorasını özləri dəvət edir.

Əsrimizin bəlasına çevrilən piylənmə də ətrafımızda kifayət qədər insanın problemidir. Hazır qidalar, zərərli vərdişlər nəticəsində orqanizmdə yağ miqdarının sürətlə artması bu xəstəliyin boy qaldırmasına imkan yaradır. Üstəlik, bir çoxumuz iş günlərində sağlam ev xörəkləri yerinə ayaqüstü qidalanmalı oluruq, kimimiz məcburiyyətdən, kimimiz könüllü. Ləzzətinə heyran olduğumuz fast-food yeməkləri daha sonra artıq çəki olaraq bədənimizdən sallananda peşman olsaq da gec olur. Arıqlamağa çalışırıq, amma pilləkan yerinə lift, piyada gəzmək yerinə maşına minməyin verdiyi komfort arıqlamaq istəyimizi anında boğur.



Ümumiyyətlə, qidalanmada su ehtiyacı çox vaxt unudulur. Halbuki, insan orqanizminin gün ərzində 2-3 litr ciy su içməyə ehtiyacı var. Səhər yuxudan duran kimi azı 200 qram su için. Yeməkdən 20 dəqiqə əvvəl, yeməkdən 1 saat sonra su içmək olar. Böyük şəhərlərdə yaşayan şəxslər birbaşa evə verilən sudan yox, filtrlərdən keçirilmiş və ya dükandan alınmış təbii sulardan istifadə etməlidirlər. Qaynanmış su ölü sudur, tərkibində xlor və ağır metallar var.

Xəstələnərkən qida qəbul etməyin. Xüsusilə, bizim milli mətbəximizə məxsus təamlar çox yağlı və daha çox ət tərkibli olduğu üçün həzm prosesi xəstə orqanizmi daha da yorur. Şüursuz saydığımız heyvanlar belə xəstələndikdə qida qəbul etmirlər. Orqanizm bütün qüvvələrini toplayıb xəstəliklə mübarizə edir, təmizləmə işi aparır bu vəziyyətdə onun enerjisini qidanı həzm etməyə xərcləmək doğru deyil.

Bütün qidalanma ekspertləri deyir ki, yalnız aclıq hiss edəndə yeyin. Tam doymamış yeməyi bitirmək lazımdır. Tez-tez acırsınızsa hər acanda əvvəlcə 1-2 stəkan su için. Yemək azı 20-30 dəqiqə ərzində yeyilməli, ümumi kütləsi 500 qramdan artıq olmamalıdır. Sürətlə yemək məsləhət deyil, qida ağız suyu ilə təmasdan sonra mədəyə getməlidir. Bütün yeməkləri ümumiyyətlə çox çeynəmək lazımdır. Unutmayın- mədənin dişləri yoxdur.

Sağlamlığın 3 ağ düşmənindən (şəkər və duzla birlikdə) biri də ağ çörək və ağ undur. Qara çörək istifadə edin, aşağı sort kəpəkli undan, çovdar çörəyi, daha yaxşı olar ki, mayasız bişirilən çörək olsun. Həmçinin, kofe, çay, şokalad, kakao, kolbasa, hisə verilmiş ətlər qəbul etməyin, onlar bədəndə yüksək dərəcədə sidik turşusu yaradırlar. Qızartma və yağlı yeməklərdən uzaq durun. Ətdən hazırlanmış kabab zərərli qidadır, tərəvəz və meyvə kababı isə xeyirli. Buxarda və suda bişən yeməklər daha faydalı hesab edilir.

Çalışın, yeməkləri qarışdırmayın. Bir neçə növ xörəyin və ya qida məhsulunun eyni vaxtda qəbul edilməsi həzmolmanı çətinləşdirir. Monoton qidalanma daha xeyirlidir. Hər meyvəni, tərəvəzi yalnız öz təbii mövsümündə qəbul edin. Emal sənayesi məhsullarının istifadəsini minumuma endirin. Qida təbii və təzə olmalıdır. Gündəlik qida həcminin azı üçdə ikisi çiy ərzaqlar olmalıdır. Yağlardan mümkün qədər az istifadə edin. Yadda saxlayın, yağlar həzmolmanı yubadır, mədə-bağırsaqda çürümə törədir. Xüsusilə, qızartma yeməklərdə yağlar çox zərərli olur. Yalnız təbii nehrə yağı, zeytun yağı və quyruq yağı istifadəsi zərərsizdir.



Orqanizmə vaxtaşırı istirahət verin, buna sanitar saatı deyilir. Yaxşı olar ki, həftədə, iki həftədə və ya heç olmasa ayda 1 gün tamamilə ac qalasınız. Bu vaxtda orqanizm özünü təmizləməklə məşğul olur və bütün toksinləri atır. Orqanizmə özünü yeniləmək üçün şans verin.

Ümumiyyətlə, qışın azuqəsini yaydan tədarük etmək daha faydalıdır. Qışda, istixanalarda yetişdirilmiş pomidor, lobiya, badımcandan istifadə etmək yerinə, təbii günəş enerjisi ilə isti aylarda yetişdirilib konservləşdirilmiş tərəvəzlərə üstünlük verin. Bununla həm orqanizminizə, həm də ailə büdcənizə fayda vermiş olursunuz.

Unutmaq lazım deyil ki, canlılar yaşamaq üçün yeyir, yemək üçün yaşamır. Yemək mədəniyyətimizi mədəmizin yemək niyyətinə çevirdiyimiz zaman orqanizmimizə də pislik etmiş oluruq.

***Lalə Mehralı***




# ”Qərb Yeni il ərəfəsində sanki Serbiyaya sürpriz hazırlayır”

MÜNASİBƏT

“Qərb, konkret olaraq ABŞ 2000-ci illərin əvvəlindən xaricə həm də ”rəngli inqilablar” ixrac edir. Buna misal olaraq Gürcüstanda ”qızılgül”, Qırğızıstanda ”zanbaq”, Ukraynada ”narıncı”, Yaxın şərqdə ”ərəb baharı” inqilablarını göstərə bilərik. Bu inqilabların heç biri həmin ölkələrə xoşbəxtlik gətirməyib. Əksinə, həmin ölkələr səfalətə düçar olublar, bəziləri 10-15 il ərazində bataqlıqdan çıxa bilsə də, bəziləri hələ də acı tale yaşayır. Şərq ölkələri, Ukrayna buna əyani sübutdur. ABŞ 2005-ci ildə Azərbaycanda da ”narıncı inqilab”a cəhd etdi, lakin dövlətimizin əsasları güclü olduğu, Prezident İlham Əliyev son dərəcə usta və cəsarətli siyasətçi olduğu üçün bu məkrli planlar baş tutmadı”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elşad Məmmədli deyib.Elşad Məmmədli sözlərinə belə davam edib: ”ABŞ bir qayda olaraq özünün diqtəsi altına almaq istədiyi, yaxud onun əmri ilə oturub-durmayan, müstəqil siyasət yürüdən ölkələrdə marionet iqtidarlar qurmaq üçün rəngli inqilablara əl atır.

ABŞ-da Cozef Bayden hakimiyyətə gələndən dərhal sonra Rusiyada, Türkiyədə də inqilablara cəhd edildi. Lakin bu ölkələrə necə deyərlər, dişi batmadı.İndi isə hədəfdə Serbiyadır və açıq-aydın görünür ki, ABŞ bu ölkədə inqilab yolu ilə hakimiyyəti zorla dəyişdirməyə çalışır.Hələ 6-7 ay öncədən Serbiya rəsmiləri bəyan etmişdilər ki, Qərb ölkədə rəngli inqilab təşkil etmək niyyətindədir. Hətta bunu Serbiya prezidenti Aleksandar Vuçiç da açıqlamışdı. Artıq bu planın icrasına start verilib - Qərb Yeni il ərəfəsində sanki Serbiyaya sürpriz hazırlayır. Faktiki olaraq son iğtişaşlar məhz Qərbin bu ölkəyə müdaxiləsi, ”rəngli inqilab” cəhdi idi. Səbəb isə sirr deyil: Serbiya anti-Rusiya sanksiyalarına qoşulmur, bu isə Qərbi hiddətləndirir. Onu müstəqil siyasətindən daşındırmaq istəyirlər.Prezident Vuçiç isə bir daha bəyan edib ki, Qərb Serbiyaya öz iradəsini yeritməyə çalışır, lakin ölkəsi müstəqil və müstəqil siyasət yürütməyə davam edəcək...”Sitat: ”İstəyirlər ki, əvvəllər olduğu kimi iplə idarə olunacaq oyuncaq kimi idarə etsinlər - hökuməti və nazirləri seçə bilsinlər, hansı siyasətin həyata keçiriləcəyinə qərar versinlər, faksla və ya telefonla əmrlər versinlər ki, Rusiyaya qarşı sanksiyalar tətbiq edin. Amma biz öz siyasətimizi aparmaq istəyirik...

”Eyni zamanda Qərb Serbiyadan Kosovonun müstəqilliyini tanımağı da tələb edir. Təbii ki, Serbiyada hansısa təsir dairələrinin ələ aldığı müəyyən zümrə var və qəfildən iğtişaşların baş verməsi də bunun təzahürüdür. Lakin düşünürəm ki, Serbiyada rəngli inqilab həyata keçirmək cəhdləri baş tutmayacaq. Çünki Qərbin məkrli planları həm de-şifrə olunub, həm də Serbiya xalqı ”demokratiya oyunu”nun hansı fəsadları verdiyini digər ölkələrin nümunəsində görüb və bunu təkrarlamaz”.

***Ayşən Vəli***

# Övladlığa götürə bilmirsənsə, himayə et

## "Himayədar ailə" modeli kimsəsiz uşaqların ailə mühitində böyüməsi üçün ən yaxşı yoldur

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*









***Azərbaycanda övladlığagötürmə üzrə idarəetmə 1 noyabr 2019-cu il tarixindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir. Bu sahədə müasir və şəffaf idarəetmə modeli yaradılaraq, övladlığagötürmə üzrə xidmətlər də elektronlaşdırılıb. Bütün prosedur online şəkildə həyata keçirilir. Hazırda ölkəmizdə "Himayədar ailə" modelinin də tətbiqinə hazırlıq işləri aparılır. Məqsəd valideyn himayəsindən məhrum uşaqların sosial xidmət müəssisələrində deyil, ailə mühitində böyüməsi və inkişafına şərait yaradılmasıdır.***

### Tamamilə online - daha şəffaf, daha operativ

Övladlığa uşaq götürmək istəyən valideyn-namizədin özü, "Himayədar ailə" olmaq istəyən şəxslərin özü və onunla birgə yaşayan 18 yaşdan yuxarı olan şəxslər tərəfindən notariat orqanına müraciət edilir və övladlığa götürmə ilə bağlı ərizə alınır. Notarial qaydada təsdiq edilən ərizə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi vasitəsilə altsistemə ötürüldükdən sonra valideyn-namizəd "ASAN Loqin" vasitəsilə Nazirliyin "e-sosial.az" internet portalında "Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığa götürmə"ndə qeydiyyatdan keçməklə şəxsi kabinet yaradır. Şəxsi kabinetdə valideyn-namizəd müraciət bölməsini doldurub, təsdiq edir və müraciət baxılmaq üçün Sosial Xidmətlər Agentliyinə yönəldilir.

Sosial Xidmətlər Agentliyi tərəfindən müraciət təsdiq edildikdən sonra valideyn-namizəd uçota alınmış hesab olunur. Övladlığa uşaq götürmək istəyən valideyn-namizədin və "Himayədar ailə" olmaq istəyən şəxslərin və bu şəxslərlə birlikdə eyni ünvanda yaşayan digər şəxslərin sağlamlıqla bağlı arayışları tələb edilir.

ƏƏSMN-nin elektron səhifəsində əks edilmiş hazırkı məlumatlara görə, mövcud övladlığa götürülə biləcək uşaqların sayı 27 nəfərdir. Sağlam uşaqların sayı 15, 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqların sayı 1, sağlamlığında müxtəlif xarakterli problemlər olan uşaqların sayı 11, oğlan uşaqlarının sayı 14, qız uşaqlarının sayı 13 nəfərdir.



### Himayə et, ailə ol

"Himayədar ailə" modeli, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların müqavilə əsasında müvəqqəti ailə yanında yerləşdirilməsini nəzərdə tutan alternativ uşaq qayğı modelidir. "Himayədar ailə" qayğı modelində himayədar ailələr müqavilə əsasında onların yanına yerləşdirilmiş uşaqların qidalanması, təhsili, sağlamlığı, fiziki və əqli inkişafının qeydinə qalır, onların ailə mühitində böyüməsinə şərait yaradır və buna görə dövlət tərəfindən müəyyənləşdirilən stimullaşdırıcı dəstək mexanizmlərindən istifadə edirlər.

Övladlığagötürmədən fərqli olaraq "Himayədar ailə" qayğı modelində uşaq ailə yanında müvəqqəti yerləşdirilir, uşaqla himayədar valideynlər arasında valideynlik münasibətləri yaranmır və uşaq ailənin varisi sayılmır. Uşaqların xoşbəxt və qayğısız gələcəyi üçün onların qayğıya, müdafiəyə, sevgiyə ehtiyacı vardır. Bunlar valideynlik bacarıqları və motivasiyası ilə bağlıdır. Bu modelin tətbiqinin məqsədi himayədar ailələri düzgün qiymətləndirib uşağın mənafeyi baxımından daha uğurlu himayədar valideynlərin seçilməsi prosesini təşkil etməkdir.

Qanunvericiliklə müəyyən edilmiş yaş həddi, sağlamlıq, ev şəraiti, gəlir tələblərini ödəyən subay və ya evli Azərbaycan Respublikası vətəndaşları himayədar ailə ola bilərlər. Yetkinlik yaşına çatmış, hər iki cinsdən olan, ən azı ümumi orta təhsilli Azərbaycan Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları himayədar valideyn ola bilərlər. Bunun üçün tələb olunan öhdəlikləri tarixindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet səhifəsindən oxumaq mümkündür.

Ümumiyyətlə, "Himayədar ailə" metodu olduqca effektiv bir üsuldur. Övladlığa vermə məsələsi həm həssas məsələdir, həm də dövlət siyasətidir. Uşaqların təhlükəsizliyi məsələsi ən vacib məsələdir. Ona görə də uşağın kimə verildiyi, hansı ailəyə övlad ola biləcəyi, o ailədə uşağın təhlükəsizliyinin təminatı, sevgi ilə əhatə olunması məsələləri son dərəcə diqqətlə işlənməlidir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
28 dekabr
2023-cü il

# Şagirdlərə ev tapşırığı necə verilməlidir?



MÜNASİBƏT

"Müəyyən limit var. Elə ev tapşırığı verilməlidir ki, təkrara xidmət etsin, şagird onu sərbəst işləyə bilsin". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib. O, sözlərinə belə davam edib: "Amma bu gün ev tapşırıqları həddindən artıq çoxdur. Onsuz da, şagird onları özü sərbəst edə bilmir. Valideynin, başqalarının köməyi ilə edir. Ev tapşırığı verilən dərsin mənimsənilməsinin göstəricisidir. Tapşırıq çox olmalı deyil. Bu, uşaqlarda tükənmişlik sendromu, dərslikdən bezmə, özlərinə və ailələrinə zaman ayırmamaq kimi problemlərə gətirib çıxarır. Beləliklə, şagirdlər telefonla oynamağa başlayır, dərsə maraq azalır, dözə bilmirlər. Valideynlər də bunu cəza kimi istifadə edir. Şagird müraciət etdikdə dərs oxumağa göndərir. Ev tapşırığı, dərs oxumaq cəza yöntəmi kimi istifadə edilir. İstər ailə, istərsə də məktəbdə şagirdə təzyiqlər olur. Onların da psixoloji cəhətdən təhsilə meyli azalır".

Psixoloq sözlərinə belə davam edib: "Ümumiyyətlə, təhsildə problemlər çoxdur, təkcə ev tapşırığı ilə məhdudlaşdırmaq olmaz. Sovet dövrünün, Avropa, Amerika təhsili, bizim təhsilimiz - hamısını uzlaşdırmaq yerinə bir-birinə qarşı qoyurlar. Bu da bir məxrəcə gətirə bilmir. Nəticədə, dövlət, cəmiyyət, xalq əziyyət çəkir. Ona görə də, təhsil çökür. Sovet dövründən qalan müəllimlər, müasir müəllimlər, təhsilin özü ziddiyyət aparsa da, ayaqda qalmağa çalışırlar. Nə qədər qalacaqlar bilmirəm. Təhsil istər cəmiyyətin, istər dövlətin əsas onurğa sütunudur. Onda olan problemlər bütün sektorlara - həm tibbə, həm iqtisadiyyata, mədəniyyətə və s. təsir edir. Hər şey təhsildən başlayır. Təhsil bərbad olduqca, hamısı da bərbad olacaq. Bir dövləti məhv eləmək istəyirsənsə, onun təhsilindən başla deyirlər. Dövləti və cəmiyyəti təhsillə məhv edirlər, məhv də olunur. Uşaqların siqaretə, oyunlara meyilliliyi tükənmişlik sendromundan yaranır. Bu məni narahat edir".

***Söylü Ağazadə***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Yaşayış yeri üzrə qeydiyyatı olmayanlara
# ŞAD XƏBƏR

**"Vətəndaşlar yaşayış yeri üzrə qeydiyyat məsələləri ilə bağlı "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər". Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən SİA-ya bildirilib ki, qeydiyyat məsələləri ilə yanaşı, şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən, 18 yaşı tamam olan vətəndaşların yeni sənədlərlə bağlı müraciətləri qəbul edilir, müəyyən edilən müddət ərzində sorğular cavablandırılır. Daxili İşlər Nazirliyi tərəfindən vətəndaşların bütün müraciətləri diqqətdə saxlanılmaqla qanunamüvafiq tədbirlərin görülüməsi təmin edilir.**




Qeyd edək ki, daxili işlər naziri Vilayət Eyvazov bu gün keçirilən müşavirədə seçki gününədək şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən, habelə 18 yaşı tamam olan vətəndaşların yeni sənədlərlə təmin olunması, eləcə də vətəndaşların yaşayış yeri üzrə qanunamüvafiq olaraq qeydiyyata alınmaları ilə bağlı zəruri tədbirlərin görülməsinə dair göstərişlər verib.

## Fatih Terimin "Panatinaikos"dakı maaşı məlum oldu



"Panatinaikos" klubunun yeni baş məşqçisi olan Fatih Terimin Yunanıstan klubunda nə qədər maaş alacağı müəyyənləşib. SİA xəbər verir ki, məlumatı Yunanıstan mətbuatı dərc edib. Xəbərə görə, Fatih Terimin "Panatinaikos"dakı maaşı 900 min avro təşkil edəcək. Qeyd edək ki, F.Terim "Panatinaikos"da İvan Yovanoviçi əvəz edib.

## Qızılcaya yoluxan böyüklər xəstəliyi daha ağır keçirirlər



Vaxtilə peyvənd olunanlar da illər keçəndən sonra qızılca xəstəliyinə yoluxa bilərlər. Bu, həkim və mütəxəssislərin mövqeyidir. Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov dediyinə görə, uşaq vaxtı vurulan peyvəndin qoruyuculuğu 15-20 il keçəndən sonra zəifləyə bilər və qızılcaya yoluxmaq mümkündür. Müşahidələr göstərir ki, qızılcaya tutulan uşaqlara nisbətən böyüklər həmin xəstəliyi daha ağır keçirir. Hətta qızılcaya təkrar yoluxanlar da var.

Mütəxəssis-ekspert deyib: "Uşaqlarla böyüklər arasına müqayisə aparsaq belə bir qənaətə gəlmək olar. 5 yaşından kiçik olan uşaqlar risk qrupu hesab olunur və onlar xəstəliyi daha ağır keçirilər. Lakin bununla yanaşı yaşı 20-30-dan yuxarı olanlar da qızılcanı ağır keçirməyə namizəddirlər". Həkimlər bir daha xəbərdarlıq edirlər: vaxt itirmədən peyvənd olunmaq lazımdır, çünki xəstəliyə yoluxandan sonra həmin peyvəndi etdirməyin heç bir əhəmiyyəti yoxdur.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**